# HƏYAT BİLGİSİ 5

## Metodik vəsait




LAYİHƏ

# Buraxılış məlumatı

**HƏYAT BİLGİSİ 5**

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**METODİK VƏSAİT**

**Tərtibçi heyət:**


Müəlliflər: **Məmmədova Nüşabə Əsəd qızı**
**Mahmudova Könül Faiq qızı**
**Bəhrəmova Sevil Şivəxan qızı**



Buraxılışa məsul **Rafiq Kazımov**
Baş redaktor **Nərgiz Cabbarlı**
Dizayner və səhifələyici **Gülşən Cabbarova**
Korrektor **Nübar Qarayeva**
Redaktor **Ülkər Məmmədova**
Texniki redaktor **Sevinc Yusifova**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*03.06.2016-cı il tarixli 369 nömrəli əmri ilə*
*təsdiq edilmişdir.*



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2020**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 5,5. Formatı 70x100$^{1}/_{16}$.
Səhifə sayı 88. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj _____. Pulsuz. Bakı – 2020

**“Şərq-Qərb” ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17**



LAYİHƏ

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA
SEVİL BƏHRƏMOVA

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün

# HƏYAT BİLGİSİ

fənni üzrə dərsliyin

## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


Dərslik komplekti haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3

5-ci sinif Həyat bilgisi fənni üzrə məzmun standartları . . . . . . . . . . . . . . . . 5

Məzmun xətləri üzrə əsas və alt standartlar . . . . . . . . . . . . . . . . . . . . . . . 6

Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli . . . . . . . . . . . . 7

Həyat bilgisi fənninin tədrisində istifadə olunan
təlim formaları və üsulları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 9

İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr . . . . . . . . . . . . . . . . . . 10

5-ci sinif üçün Həyat bilgisi fənni üzrə təxmini illik
planlaşdırma nümunəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11

Şagird nailiyyətlərinin qiymətləndirilməsinə
dair tövsiyələr . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13

Qiymətləndirmə üçün meyarların işlənib hazırlanması . . . . . . . . . . . . . . 20

Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi . . . . . . . . . . . . . . . . . . 26

Fənndaxili və fənlərarası inteqrasiya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 27

Mövzuların gündəlik planlaşdırmasına dair tövsiyələr . . . . . . . . . . . . . . 28

Gündəlik planlaşdırma nümunələri: . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30


LAYİHƏ

# Dərslik komplekti haqqında

Həyat bilgisi fənn kurikulumu ölkəmizdə aparılan təhsil islahatının yerinə yetirilməsi istiqamətində görülmüş işlərdən biri kimi meydana çıxmışdır. Bu fənnin tədrisi ibtidai və ümumi orta təhsil səviyyələrində nəzərdə tutulur.

Həyat bilgisi fərdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər sistemini formalaşdırmağa və onu təkmilləşdirməyə kömək edən inteqrativ fəndir.

Bu cür geniş əhatə dairəsinə malik olan fənn, şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin həyata keçirilməsinə istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir. Həyat bilgisi fənninin şagirdlərdə ünsiyyətqurma və birlikdəçalışma kimi mənəvi dəyərlərin formalaşdırılmasında, onlarda mühakimə yürütmək, öz nöqteyi-nəzərlərini sərbəst ifadə etmək, onu arqumentləşdirmək, öz hüquqlarını qorumaq və başqalarının hüquqlarını müdafiə etmək vərdişlərinin yaranmasında mühüm rolu vardır.

Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır. Onlar özlərini bu aləmin bir hissəsi kimi dərk edir, təbiətdə və cəmiyyətdə müşahidə etdikləri hadisələrdən, dəyişikliklərdən və bunlar arasındakı əlaqələrdən nəticələr çıxarır, araşdırmaq, təhlil etmək, proqnoz vermək, fikir və istəklərini başqalarına düzgün çatdırmaq bacarıqlarına yiyələnirlər.

Həyat bilgisi fənninin məzmunu nəticələr (məzmun standartları) formasında verilir. Nəticələrin siz müəllimlərə bir tələb kimi verilməsi öz fəaliyyətinizdə sərbəst olmağa, müvafiq təlim strategiyaları seçməyə imkan yaradır. Bu isə öz növbəsində biz müəlliflərə müasir dərsliklər, digər resurslar hazırlamaqda istiqamət verir.

5-ci sinif üçün Həyat bilgisi dərslik komplekti Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi "Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Həyat bilgisi kurikulumu (V-IX siniflər)" əsasında hazırlanmışdır.

Dərsliklərin komplekt şəkildə çap olunması təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunmasını və üzvi şəkildə əlaqələndirilməsini təmin edir, müəllimin planlaşdırmadan qiymətləndirməyə qədər bütün fəaliyyətini istiqamətləndirir, təlim prosesində şagirdlərin müstəqilliyinin və tətbiq bacarıqlarının artırılmasına imkan yaradır. Bu baxımdan şagirdlər məlumatlar əldə etmək üçün axtarışlara cəlb olunur, onlara fəal təlim şəraiti yaradılır. Şagirdlərin fərdi marağı nəzərə alınmaqla zəruri həyati bacarıqların formalaşdı-

LAYİHƏ

rılmasına, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə imkan yaradır, təlimə marağı artırır.

Müasir dərsliklərə verilən tələblərə uyğun olaraq hazırladığımız dərslik komplektində bütün məzmun standartları reallaşdırılmış, mübahisəli faktların olmaması, verilmiş faktların dəqiqliyi, əyaniliyin, müasirliyin, qrammatik qaydaların gözlənilməsi ön plana çəkilmişdir. Təlim materiallarının düzülməsində sadədən mürəkkəbə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınmışdır. Dərslikdə öz əksini tapmış təlim materiallarının yaş səviyyəsinə uyğun, sadə dildə, lakonik olmasına çalışmışıq. Dərslikdəki hər bir mövzu aşağıdakı kimi qruplaşmışdır.


Cəmiyyət – bu bizik

1 Hər şey ünsiyyətdən başlayır

Motivasiya

A

*Artıq siz ibtidai təhsil səviyyəsini başa vurmusunuz. Təhsilinizi 5-ci sinifdə davam etdirirsiniz. Keçəcəyiniz fənlərin və müəllimlərinizin sayı artıb. Vaxtınızın çox hissəsini müəllimləriniz və sinif yoldaşlarınızla birgə doğma məktəbdə keçirəcək, onlarla ünsiyyət quracaqsınız. Sizi düşündürən, narahat edən suallara burada cavab tapacaqsınız. Görəsən, nə üçün ünsiyyət insanın mənəvi tələbatı hesab olunur?*

*Şəkli sinif yoldaşlarınızla müzakirə edin.*

Araşdırma

B

Yeni biliklər

C

***Ünsiyyət*** — insanlar arasında qarşılıqlı münasibət, onların bir-birini qavraması və anlaması prosesidir. Sizcə, ünsiyyətsiz yaşamaq olarmı?

Bir-biri ilə ünsiyyət saxlamayan cəmiyyət təsəvvür etmək mümkün deyil. Çünki cəmiyyətdə yaşayıb heç kimlə ünsiyyət saxlamamaq qeyri-mümkündür.

Lakin ünsiyyət heç də asan proses deyil. Cəmiyyətdə elə insanlar var ki, onlar ətrafdakılarla ünsiyyət qurmaqda çətinlik çəkirlər. İnsanların uğurlu ünsiyyət yaratmalarına bir sıra amillər kömək edir: salamlaşmaq, güləruz olmaq, hal-əhval tutmaq, qonaq getmək, qonaq qəbul etmək, xoşrəftar, dürüst, səxavətli olmaq və s. Bütün bu sadalananlar *ünsiyyət mədəniyyətinin* formalaşması üçün böyük əhəmiyyət kəsb edir.

İnsan ünsiyyətinin əsasını nitq təşkil edir. Nitq qabiliyyəti yalnız insana məxsusdur. O, insanın əxlaqını, elmini, dünyagörüşünü, mədəni səviyyəsini əks etdirən güzgüdür.

8

ternet vasitəsilə əldə edir, öyrənir, hətta dost da seçirlər. Lakin kompüterdən çox istifadə ondan asılılıq yarada bilər. Bu isə insanın canlı ünsiyyətini azaldır. İnsanlar arasında canlı ünsiyyəti heç nə əvəz etməz və münasibətlərdən alınan təəssüratı verə bilməz. Unutmayın ki, ünsiyyət insanın mənəvi tələbatıdır. Buna baxmayaraq, virtual ünsiyyətin müsbət tərəfləri də vardır. İnternet vasitəsilə müxtəlif xalqların, ölkələrin nümayəndələri ilə dostluq qura, onlarla birgə şagird layihələrinə qoşula bilərsiniz. Müasir dövrün texnoloji yenilikləri bizim işimizi asanlaşdırmaq, uzağı əlçatan etmək kimi imkanları ilə cəmiyyətin tələbatlarının öhdəsindən gəlməyi asanlaşdırır. Bütün bu yeniliklər öz qədərində, lazımi səviyyədə işlənərsə, həyatımıza ziyan vurmadan rahat və firavan bir gələcək qurmaq imkanına malik ola bilərik. Azərbaycan atalar sözlərində belə deyilir:

*1) Artıq tamah baş yarar.*
*2) Çox istəyən azdan da olar.*

*Yuxarıda qeyd edilmiş atalar sözlərinin İnternetdən çox istifadə ilə nə kimi əlaqəsi vardır? Müzakirə edin.*

*1. Şəkillərə əsasən ünsiyyət vasitələrini müəyyən edin.*
*2. Nümunəvi ünsiyyət qaydaları haqqında esse yazın.*
*3. Bəzi insanların düzgün ünsiyyət qura bilməməsinin səbəblərini araşdırın. Belə insanlara bunun aradan qaldırılması üçün hansı tövsiyələri verərdiniz?*

F

Sual və tapşırıqlar

11

Dərslikdə mövzuların sonunda sual və tapşırıqlar öz əksini tapmışdır. Bu tapşırıqlardan dərsin müxtəlif mərhələlərində istifadə edə bilərsiniz.

Metodik vəsait sizə öz işinizi qurmağa, perspektiv hazırlamağa, dərsi planlaşdırmağa, qiymətləndirmə vasitələrinin hazırlanmasına köməklik göstərəcəkdir.

MV-də hər bir mövzunun tədrisi ilə bağlı tövsiyələr, mövzular üzrə həm perspektiv (illik), həm də gündəlik planlaşdırma nümunələri öz əksini tapmışdır. Ümidvarıq ki, hazırladığımız dərslik və metodik vəsait bu işdə sizə düzgün istiqamət verəcəkdir.

Metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

LAYİHƏ

- *5-ci sinif Həyat bilgisi fənni üzrə məzmun xətləri üzrə əsas və alt standartlar;*
- *Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli;*
- *Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim formaları və üsulları;*
- *İllik planlaşdırılmanın aparılmasına dair tövsiyələr;*
- *5-ci sinif üçün Həyat bilgisi fənni üzrə təxmini illik planlaşdırma nümunəsi;*
- *Qiymətləndirmə üçün meyarların işlənib hazırlanması;*
- *Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi*
- *Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr;*
- *Mövzuların gündəlik planlaşdırmasına dair tövsiyələr;*
- *Gündəlik planlaşdırma nümunələri;*
- *Summativ qiymətləndirmə vasitələri;*
- *İstifadə edilmiş və müəllimin istifadə edə biləcəyi mənbələr.*

# 5-ci sinif Həyat bilgisi fənni üzrə məzmun standartları

***5-ci sinfin sonunda şagird:***

- *varlıq və hadisələrin sadə təsnifatını verir;*
- *canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır;*
- *cəmiyyətin sosial tərkibini, dövləti onun həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir;*
- *insan hüquqlarını müdafiə edən qurumları fərqləndirir, topladığı materialları təqdim edir;*
- *iqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir;*
- *sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir;*
- *ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir, əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir;*
- *mənəvi borcun əhəmiyyətini izah edir, dini inancları fərqləndirir;*
- *həyat fəaliyyəti zamanı yarana biləcək təhlükəli və xoşagəlməz halları, fövqəladə hadisələri izah edir.*

LAYİHƏ

## Məzmun xətləri üzrə əsas və alt standartlar

### 1. Təbiət və biz

Şagird:

**1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.

**1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.

### 2. Fərd və cəmiyyət

Şagird:

**2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

2.1.1. Cəmiyyətin sosial tərkibini izah edir.

2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.

**2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.**

2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumları fərqləndirir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir.

**2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.**

2.3.1. İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir.

### 3. Mənəviyyat

**Şagird:**

**3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

3.1.1. Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir.

**3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.**

3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.

3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir.

**3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.**

3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.

### 4. Sağlamlıq və təhlükəsizlik

Şagird:

**4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.

**4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.**

4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.

4.2.2. Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.

**4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.**

4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

LAYİHƏ

## Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli

| № | Mövzular | Standartların reallaşdırılması | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|
| **CƏMİYYƏT – BU BİZİK** | | | | |
| 1 | Hər şey ünsiyyətdən başlayır | 3.1.1. | Formativ | 2 |
| 2 | Ailə kiçik cəmiyyətdir | 2.1.1. | Formativ | 1 |
| 3 | Mən də bir qrupdayam | 2.1.1. | Formativ | 1 |
| 4 | Xalqlar | 2.1.1. | Formativ | 1 |
| 5 | KSQ | | | 1 |
| 6 | Dövlət və dövlətçilik | 2.1.2. | Formativ | 1 |
| 7 | Dövlətim mənə xidmət edir | 2.1.2.; 3.2.2. | Formativ | 1 |
| 8 | Hüquqlarımız qorunur | 2.2.1.; 2.2.2. | Formativ | 2 |
| 9 | Bizim tələbatlarımız | 2.3.1. | Formativ | 2 |
| 10 | KSQ | | | 1 |
| **ƏTRAF MÜHİT VƏ SAĞLAMLIQ** | | | | |
| 11 | Sağlam həyat tərzi | 4.1.1. | Formativ | 1 |
| 12 | Təhlükəsiz kompüter | 4.1.1.; 4.2.1. | Formativ | 1 |
| 13 | Sağlamlığımız təhlükədədir | 4.2.1.; 4.3.1. | Formativ | 1 |
| 14 | Yol nişanları nə üçündür? | 4.2.2. | Formativ | 1 |
| 15 | Yol hərəkəti qaydalarına əməl edək | 4.2.2. | Formativ | 1 |
| 16 | KSQ | | | 1 |

LAYİHƏ

| | | | | |
|---|---|---|---|---|
| **TƏBİƏTİ GƏZƏK VƏ TANIYAQ** | | | | |
| 18 | Təbiətdəki cisim və maddələr | 1.1.1. | Formativ | 1 |
| 19 | Mühit amilləri və təbiət hadisələri | 1.1.1.; 1.2.1. | Formativ | 1 |
| 20 | Təbiət qəzəblənib | 4.3.1. | Formativ | 1 |
| 21 | Günəş sistemində baş verən hadisələrin sirri | 1.1.1. | Formativ | 1 |
| 22 | KSQ | | | 1 |
| 23 | Ekoloji mühitin canlılara təsiri | 1.2.1. | Formativ | 1 |
| 24 | İnsan və təbiət | 1.2.1. | Formativ | 1 |
| 25 | Təbiətin harayı | 1.2.1. | Formativ | 1 |
| 26 | Təbiətə borcumuz | 3.2.2 | Formativ | 1 |
| 27 | KSQ | | | 1 |
| **DİNİMİZ VƏ MƏNƏVİYYATIMIZ** | | | | |
| 28 | İnsanın gözəlliyi onun əxlaq və davranışındadır | 3.2.1.; 4.1.1. | Formativ | 1 |
| 29 | Dini dözümlülük | 3.3.1. | Formativ | 1 |
| 30 | Səmavi və qeyri-səmavi dinlər | 3.3.1. | Formativ | 1 |
| 31 | İnanc sistemində oxşarlıq və fərqlər | 3.3.1. | Formativ | 1 |
| 32 | KSQ | | Formativ | 1 |
| | Cəmi: | | | 34 |

LAYİHƏ

# Həyat bilgisi fənninin tədrisində istifadə olunan təlim formaları və üsulları

Yəqin ki, məktəb təcrübəsindən də bilirsiniz ki, şagirdlər, xüsusən də yeniyetmələr yalnız kitab və müəllimin şərhi ilə kifayətlənmir, müstəqil düşünməyə, axtarmağa, tədqiqatçılığa meyil göstərirlər. Elə bu baxımdan artıq ənənəvi üsullarla keçilən dərs şagirdlər üçün, sözün əsl mənasında, maraqsızdır. Onlar müəllimi dinləməkdənsə, özləri tədqiqat aparmağa üstünlük verirlər. Yaradıcı müəllimlər bunu nəzərə alaraq müəyyən strategiya müəyyənləşdirir, şagirdləri üçün elə bir mühit yaratmağa çalışırlar ki, şagirdlər axtarışlar apararaq öyrənsinlər.

Təlim formaları (kollektivlə iş, qruplarla iş, cütlərlə iş və fərdi iş) təlim strategiyasının bir hissəsi olub, dərsin məqsədinə uyğun olaraq müəyyənləşdirilir və şagirdlərin fəaliyyətləri bu forma üzərində qurulur.

**Kollektivlə iş** zamanı kollektiv fəaliyyətə alışmaq bacarığının bünövrəsi qoyulur.

**Qruplarla iş.** Müəyyən problemi həll etmək üçün qruplar təşkil olunur. Bu zaman onları müzakirə etmək, fikir mübadiləsi aparmaq, mühakimə yürütmək və əməkdaşlıq etmək bacarıqları inkişaf etdirilir.

**Cütlərlə iş.** Bu təlim forması şagirdlərə bir biriləri ilə daha yaxından əməkdaşlıq etməyə və ünsiyyət qurmağa, məsuliyyəti bölüşməyə imkan yaradır. Lakin bu əməkdaşlığın əhatə dairəsi çox azdır.

**Fərdi iş.** Fərdi iş zamanı şagirdin sərbəst düşünməsi üçün real imkanlar yaranır. Müəllim şagirdin fəaliyyətini tam obyektiv qiymətləndirə bilir.

Nəzərə almaq lazımdır ki, təlim formalarından istifadə edərkən dərsin məqsədləri nəzərə alınmalıdır.

Bildiyiniz kimi, ənənəvi təlim şagirdlərə mümkün qədər çox bilik vermək və biliyin mənimsənilməsinə nail olmaq məqsədi daşıyırdı. Şagirdlər biliyi hazır şəkildə əldə edir və müəyyən fənlər üzrə informasiyalar şagirdin şüurunda məna və əhəmiyyət baxımından həmişə əlaqəli olmayan tematik bloklar şəklində formalaşırdı.

İnteraktiv təlim isə başqa bir forma kəsb edir. Şagirdlər ətraf aləm haqqında bilikləri müəllimdən hazır formada deyil, şəxsi fəallıq əsasında əldə edir, eyni zamanda fərdi, kollektiv fəaliyyət zamanı bilik axtarışının müxtəlif mexanizmlərini mənimsəyirlər. İnteraktiv təlimin məqsədi məhz elə təlim şəraitinin yaradılmasıdır ki, burada şagird həyatın müxtəlif sahələrində öz bilik və bacarıqlarını aşkarlamağa qadir olsun.

Fənnin tədrisi zamanı, əsasən, klaster, beyin həmləsi, ziqzaq, mühazirə, fasiləli oxu, müzakirə, karusel, BİBÖ, anlayışın çıxarılması, İNSERT, layihə, Venn diaqramı, assosiasiya kolu və s. üsullardan istifadə etmək məqsədəuyğundur.

Yadda saxlamaq lazımdır ki, interaktiv təlim üsullarından istifadəni şagirdlərin əyləndirilməsi vasitəsinə çevirmək olmaz. İnteraktiv təlimdən istifadə sinifdə yalnız əlverişli psixoloji mühitin yaradılması ola bilməz. Üsullardan istifadə zamanı şagirdin fərdi təcrübəsi, auditoriyada qarşılıqlı fəaliyyəti, fənnin məqsədi, tapşırıqların səviyyəsi mütləq nəzərə alınmalıdır.

LAYİHƏ

# İllik planlaşdırmanın aparılmasına dair tövsiyələr

Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün hər bir müəllimin fəaliyyət istiqamətidir. Planlaşdırma apararkən sinfin səviyyəsi mütləq nəzərə alınmalıdır. Uzun illər ərzində müəllimlər hər bir fənn üzrə hazır illik planlaşdırmadan istifadə etmişlər. Hazırkı kurikulumlar isə müəllimlərə planlaşdırma aparmaqda tam sərbəstlik verir. Təbii ki, bu planlaşdırmanı kor-koranə aparmaq qeyri-mümkündür. Bunun üçün müəllimdə bir sıra bacarıqların olması vacibdir. Bu bacarıqlar aşağıdakılardır:

- *Məzmun standartlarına əsasən dərslikdəki tədris vahidi və mövzular üzrə dəqiqləşdirmələr aparmaq.*
- *Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirmək.*
- *İnteqrasiya imkanlarını müəyyən etmək.*
- *Əlavə resurslar seçmək.*
- *Mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaq.*
- *Mövzuya görə nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirmək.*

İllik planlaşdırmanı tərtib edərkən müəllim dərs ilinin həftələrini, tədris ilində baş verəcək mühüm hadisələri, tədris vahidlərinin və onlara daxil olan mövzuların adlarını müəyyən edir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartlarını seçir, istifadə olunacaq resursları müəyyən edir, hər mövzu üçün ayrılmış vaxtı qeyd edir.

Sizə bir tədris vahidi üzrə illik planlaşdırma nümunəsi təqdim edirik. Siz buna əsasən bütün mövzular üzrə illik planlaşdırma hazırlaya bilərsiniz.

LAYİHƏ

## 5-ci sinif üçün Həyat bilgisi fənni üzrə təxmini illik planlaşdırma nümunəsi

| Alt standart | Tədris vahidi | Mövzu | Resurslar | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|---|
| 3.1.1. | **Cəmiyyət – bu bizik** | Hər şey ünsiyyətdən başlayır | Dərslik, iş vərəqləri, müxtəlif şəkillər, elektron təqdimat | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 2.1.1. | | Ailə kiçik cəmiyyətdir | Dərslik, iş vərəqləri, müxtəlif ailə şəkilləri, CD və s. | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 2.1.1. | | Mən də bir qrupdayam | Dərslik, iş vərəqləri, flipçart, müxtəlif şəkillər *https://www.youtube.com/watch?v=W7YiWrT9Q7w&hd=1* | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 2.1.1. | | Xalqlar | Dərslik, iş vərəqləri, müxtəlif xalqlara dair şəkillər, İKT, CD və s. *https://www.youtube.com/watch?v=W7YiWrT9Q7w&hd=1* *https://www.youtube.com/watch?v=AS1A6_NFuaE&hd=1* | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| – | | KSQ | – | – | 1 |
| 2.1.2. | | Dövlət və dövlətçilik | Dərslik, iş vərəqləri, dövlət atributları, elektron təqdimat | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |

LAYİHƏ

| Alt standart | Tədris vahidi | Mövzu | Resurslar | Qiymətləndirmə | Saat |
|---|---|---|---|---|---|
| 2.1.2.; 3.2.2. | **Cəmiyyət – bu bizik** | Dövlətim mənə xidmət edir | Dərslik, iş vərəqləri, ensiklopediya, müxtəlif şəkillər, elektron təqdimat *http://www.myvideo.az/v/1791080* | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 1 |
| 2.2.1.; 2.2.2. | | Hüquqlarımız qorunur | Dərslik, iş vərəqləri, insan hüquqlarını müdafiə edən qurumlarla bağlı paylama materialları, elektron təqdimat, ensiklopediya və s. | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | 2 |
| 2.3.1. | | Bizim tələbatlarımız | Dərslik, iş vərəqləri, sxem müxtəlif şəkillər, elektron təqdimat *https://www.youtube.com/watch?v=XOli3FW6100* *https://www.youtube.com/watch?v=rhBcQMHDIAc* | Diaqnostik və formativ qiymətləndirmənin üsul və vasitələri | |
| - | | KSQ | - | - | 1 |

LAYİHƏ

# Şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr

Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn və onu idarə edən vacib amildir.

Məktəbdaxili qiymətləndirmə diaqnostik (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (fəaliyyətin qiymətləndirilməsi), summativ (kiçik, böyük və yekun) qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** sizin öz təlim strategiyanızı müəyyənləşdirmənizə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumitəhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

Diaqnostik qiymətləndirmənin aparılması üçün aşağıdakı üsul və vasitələrdən istifadə edə bilərsiniz:

| Üsullar | Vasitələr |
|---|---|
| **Tapşırıqvermə** | **Çalışmalar** |
| Müsahibə (şifahi yoxlama) | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək (diaqnoz qoymaq) istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Söhbət | Şifahi söhbət |
| Müşahidə | Gündəlik müşahidə |

Tədris ilinin ilk mövzusuna başlamazdan öncə şagirdlərin aşağı siniflərdən Həyat bilgisi fənni üzrə məzmun standartlarından bir neçəsində nəzərdə tutulmuş bilik və bacarıqlara hansı səviyyədə yiyələndiklərini müəyyən etmək olar.

### Diaqnostik qiymətləndirmə tapşırıqlarına aid nümunə:

S.A.A ______________________________

Sinif ______________________________

Tarix ______________________________

1. Təbiətdə hansı cisimlər var?

______________________________________________

2. Təbiət hadisələri nədir? Misallar göstərin.

______________________________________________

LAYİHƏ

3. Fövqəladə hadisələr hansılardır?

---

4. İnsan ətraf mühitə nə kimi mənfi təsir göstərir?

---

5. Təbiəti necə qoruya bilərik?

---

**Formativ qiymətləndirmə** qəbul edilmiş standartların reallaşdırılmasına istiqamətlənən irəliləyişlərin monitorinqi sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu qiymətləndirmə fənni tədris edən müəllim tərəfindən məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırlanmış meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq aparılır. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair Müvəqqəti Təlimata əsasən qiymətləndirmə meyarlarına uyğun rubriklər 4 səviyyədə tərtib oluna bilər (zəruri hallarda 3-5 səviyyədə).

Bir məzmun standartı dərslikdəki bir neçə mövzuda reallaşdığına görə həmin standartlardan çıxan qiymətləndirmə meyarları növbəti müvafiq dərslərdə də istifadə edilir.

Dərslikdə öz əksini tapmış "Hüquqlarımız qorunur" mövzusunda təqdimatın hazırlanması nəzərdə tutulur. Təqdimat aşağıdakı cədvəl əsasında qiymətləndirilə bilər:

| Meyarlar | Hə | Yox |
|---|---|---|
| Təqdimatda mövzunun tam əhatə olunması | | |
| Təqdimatın düzgünlüyü | | |
| Təqdimatçının fikirlərini aydın və dəqiq ifadə etməsi | | |
| Təqdimatın hazırlanmasında sistemliliyin gözlənilməsi | | |
| Təqdimatçının verilmiş zaman çərçivəsində təqdimatını tamamlaması | | |

LAYİHƏ

**Yekun (summativ) qiymətləndirmə** standartların mənimsənilməsi istiqamətində şagirdlərin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə il ərzində bəhs və ya bölmələrə, həm də tədris ilinin sonunda qiymətləndirmə

standartlarına əsasən həyata keçirilir. Summativ qiymətləndirmənin nəticələri rəsmidir və keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Summativ qiymətləndirmənin aparılması üçün yalnız test üsuluna üstünlük verməməli, aşağıdakı üsul və vasitələrdən də istifadə olunmalıdır:

| Üsullar | Vasitələr |
|---|---|
| Yoxlama yazı işləri | Yoxlama yazı işləri üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən edilmiş meyar cədvəli |
| Şifahi sorğu | Şifahi sorğu üzrə qeydiyyat vərəqi |
| Test | Test tapşırıqları |
| Tapşırıqvermə | Tapşırıq, çalışma və laboratoriya işləri |
| Yaradıcılıq və əl işləri | Fənlərə müvafiq olaraq rəsmlər, hazırlanan məmulatlar və digər əl işləri |

Kiçik summativ qiymətləndirmə fənn kurikulumları tətbiq olunan siniflərdə bəhs və ya bölmələrin sonunda altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Onun nəticələri yarımillik qiymətlərin hesablanmasında nəzərə alınır.

Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün dərsdə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xananı diaqonalla 2 yerə ayırmalı və onun surətində "*q*" (qaib) yazıb, məxrəci isə boş saxlamalısınız. Növbəti 2 həftə ərzində kiçik summativ qiymətləndirmə aparıb, nəticəsi məxrəcdə qeyd edilməlidir. Bu şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

*Qiymətləndirmə vasitələri hazırlanarkən aşağıdakılar nəzərə alınır, suallar çətinlik səviyyəsinə görə aşağıdakı kimi hazırlanır:*

- 1-ci səviyyə üzrə suallar – 20%;
- 2-ci səviyyə üzrə suallar – 30%;
- 3-cü səviyyə üzrə suallar – 30%;
- 4-cü səviyyə üzrə suallar – 20%.

LAYİHƏ

Əgər 30 sual hazırlanarsa, bu sualların 20%-i birinci səviyyəli, 30%-i II səviyyəli, 30%-i III səviyyəli, 20%-i isə 4-cü səviyyəli suallar olmalıdır.

Təhsildə aparılan səmərəli islahatlar, yeniliklər məktəbdaxili qiymətləndirmənin tətbiqində bəzi dəyişikliklərə səbəb olmuşdur. Summativ qiymətləndirmənin aparılmasında bir sıra dəyişikliklərin edilməsi onun reallaşdırılması istiqamətində həm müəllim, həm şagirdləri, həm də valideyinlərin yeniliklərlə üz-üzə gəlməsinə imkanlar açdı. Şagird nailiyətinin qiymətləndirilməsi, yekun balın çıxarılması və onun hesablanma qaydasındakı fərqlilik şagirdlərin bilik və bacarıqlarının ölçülməsinin daha real, daha obyektiv olmasına imkanlar açmaq üçün nəzərdə tutulmuşdur.

Edilmiş bir sıra dəyişikliklər Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmişdir.

Qərara əsasən summativ qiymətləndirmədə aşağıdakı dəyişikliklər həyata keçirilmişdir:

4.1. Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır.

4.2. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

4.2.1. hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;

4.2.2. hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

4.3. Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

4.4. I sinifdə summativ qiymətləndirmə aparılmır.

4.5. Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

4.6. Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

4.7. Böyük summativ qiymətləndirmə ümumitəhsil müəssisəsinin rəhbərliyi tərəfindən hər yarımilin sonunda aşağıda sadalanan fənlər üzrə aparılır:

4.7.1. ümumitəhsil müəssisələrinin IV, IX və XI siniflərində bütün fənlər üzrə;

4.7.2. ümumitəhsil müəssisələrinin V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri üzrə;

4.7.3. lisey və gimnaziyaların V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin Pedaqoji Şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 fənn üzrə;

LAYİHƏ

4.7.4. ümumitəhsil müəssisələrinin tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunmayan X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri üzrə;

4.7.5. ümumitəhsil müəssisələrinin tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunan X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin pedaqoji şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 təmayül fənni üzrə;

4.7.6. lisey və gimnaziyaların X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin Pedaqoji Şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 fənn üzrə.

4.8. Ümumitəhsil müəssisələrinin V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün və tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunmayan X sinfində həmin təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin pedaqoji şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum digər 3 fənn üzrə də böyük summativ qiymətləndirmə keçirilə bilər.

4.9. Pedaqoji şuranın qərarı ilə 4.7.3-cü, 4.7.5-ci, 4.7.6-cı yarımbəndlərdə və 4.8-ci bənddə müəyyənləşdirilməsi nəzərdə tutulmuş fənlərin seçimi tədrisin keyfiyyətinə nəzarət etmək məqsədi daşıyır. Pedaqoji Şuranın müvafiq qərarı dərs ilinin əvvəlində qəbul edilir və təhsilalanlara elan edilir.

4.10. Hər bir fənn üzrə böyük summativ qiymətləndirmə ibtidai təhsil səviyyəsində 45, ümumi orta və tam orta təhsil səviyyəsində 45-90 dəqiqə ərzində aparılır.

4.11. II-III siniflərdə böyük summativ qiymətləndirmə keçirilmir.

4.12. Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

4.13. Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə uzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə uzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə uzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə uzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

LAYİHƏ

4.14. Üzrlü (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) səbəbdən kiçik summativ qiymətləndirmənin hər hansı birində iştirak etməyən təhsilalanın kiçik summativ qiymətləndirmədə iştirak etməməsi yarımillik balların hesablanmasında nəzərə alınmır. Təhsilalanın iştirak etmədiyi kiçik summativ qiymətləndirmə növbəti kiçik summativ qiymətləndirməyədək təşkil edilir.

4.15. Üzrsüz səbəbdən kiçik summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanların həmin qiymətləndirmə üzrə balı "0" qəbul edilir və yarımillik balların hesablanmasında nəzərə alınır.

4.16. Üzrsüz səbəbdən I və II yarımillər üzrə keçirilən böyük summativ qiymətləndirmələrdə iştirak etməyən təhsilalan həmin qiymətləndirmələr üzrə balı "0" qəbul olunur.

4.17. Təhsilalan I və II yarımillər üzrə keçirilən böyük summativ qiymətləndirmələrdə üzrlü səbəbdən (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) iştirak edə bilmədikdə, müvafiq summativ qiymətləndirmə günündən sonra növbəti 2 (iki) həftə müddətində onun üçün böyük summativ qiymətləndirmə təşkil edilir. Qeyd olunan müddətdə təhsilalan böyük summativ qiymətləndirmədə hər hansı səbəbdən iştirak etmədikdə böyük summativ qiymətləndirmə üzrə balı "0" qəbul olunur.

4.18. Summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanlar üçün sinifdə istifadə olunan eyni səviyyəli yeni qiymətləndirmə vasitələri (test, imla, inşa, ifadə, çalışma) hazırlanır.

4.19. Təhsilalanın summativ qiymətləndirmədə bu Qaydanın 4.13-cü bədi nəzərə alınmaqla topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

4.19.1. 30-dək (daxil olmaqla) olan ballar "2" qiyməti ilə;

4.19.2. 30-dan 60-dək (daxil olmaqla) olan ballar "3" qiyməti ilə;

4.19.3. 60-dan 80-dək (daxil olmaqla) olan ballar "4" qiyməti ilə;

4.19.4. 80-dən 100-dək (daxil olmaqla) olan ballar "5" qiyməti ilə.

4.20. Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və "Məktəbli kitabçası"nda yazılır.

4.21. Summativ qiymətləndirmələrin nəticələri ilə razılaşmayan təhsilalanların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciətlərinə təhsil müəssisəsinin tabeliyindən asılı olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ya yerli təhsili idarəetmə orqanları tərəfindən baxılır. Yerli təhsili idarəetmə orqanlarının qərarları ilə razılaşmayan təhsilalanların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciətlərinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən baxılır.

LAYİHƏ

5. Yarımillik və illik qiymətlərin hesablanması

5.1. Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

5.2. Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

Y – təhsilalanın yarımillik üzrə balını;

$$Y = (ksq1 + ksq2 + \ldots + ksqn) / n$$

ksq1+ ksq2+...+ ksqn – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarını;

n – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

5.3. Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

BSQ – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

5.4. Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

5.5. İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

LAYİHƏ

# Qiymətləndirmə üçün meyarların işlənib hazırlanması

Müəllim üçün ən çətini və eyni zamanda ən vacibi, həm ayrı-ayrı şagirdlərin işini, həm də bütövlükdə kiçik qruplardakı işi kifayət qədər obyektiv qiymətləndirməyə imkan verən qiymətləndirmə meyarları tərtib etməkdir.

Qiymətləndirmə "qarşılıqlı əlaqə" qurmalı, yəni şagirdlərlə müəllimlərin bir-birlərini yaxşı başa düşməsinə imkan yaratmalıdır. Buna görə, müəllim işlənib hazırlanmış qiymətləndirmə meyarları ilə şagirdləri də tanış etməlidir. Bundan əlavə, müəllim xahiş edə bilər ki, şagirdlərin özləri kiçik qruplarda "əla", "yaxşı" və "kafi" qiymət meyarlarını müəyyənləşdirsinlər və sonra siniflə birlikdə bunları müzakirə etsinlər.

Düzgün tərtib edilmiş qiymətləndirmə meyarları obyektiv qiymətləndirməyə kömək etməlidir. Bu meyarların əsasında müəllimlər bu və ya digər şagirdin işlərini eyni bir mövqedən qiymətləndirə bilərlər.

Şagirdlərin özünüqiymətləndirmə metodundan istifadəsi də müəllim üçün çox faydalıdır; özünüqiymətləndirmə prosesi, məsələn, sorğu vərəqləri və anketlərin doldurulması formasında keçirilə bilər. Şagirdlərin öz fəaliyyətlərini qiymətləndirməsi çox vacibdir. Belə ki bu onları öz davranışlarına yüksək məsuliyyətlə yanaşmağa sövq edir, onlarda obyektivlik hissi tərbiyə edir, öz münasibətlərini düzgün və qarşılıqlı anlaşma prinsipləri üzərində qurmağı öyrədir. Bu halda özünüqiymətləndirmə və kənardan verilən qiymətlər arasındakı fərq qrup və fərd üçün zəngin informasiya mənbəyi rolunu oynaya bilər.

*Yekun qiymət şagirdin özünüqiymətləndirməsindən və müəllimin verdiyi qiymətin toplanmasından alınır.*

### Qiymətləndirmənin müxtəlif üsul və formaları

Aşağıda qruplardakı işin, təqdimatda iştirakın və s. qiymətləndirilməsinin bəzi forma və meyarları, habelə fəal təlim metodlarının tətbiqi ilə keçən dərslərdə müəllimin öz şagirdlərinin özünüqiymətləndirməsi üçün istifadə etməli olduğu vərəqlər göstərilib.

Müəllimlər öz qiymətləndirmə sistemlərini yaradarkən, bunlardan tövsiyə qismində istifadə edə bilərlər.

Hər bir sinfin, məktəbin özünəməxsus cəhətlərini nəzərə almaqla, müəllimlər mövcud meyarları müxtəlif variantlarda tətbiq edə, onlara əlavələr edə və öz istədikləri kimi dəyişdirə bilərlər.

### Təqdim edilmiş informasiyanın qiymətləndirilməsi

İnformasiyanın toplanması və təhlili kimi qabiliyyətlərin qiymətləndirilməsi üçün 5 bal sistemindən istifadə etmək məsləhət görülür.

A) İnformasiyanın təqdim edilməsi:

Həmişə dəqiqdir . . . . . . . . . . . . . . . . . . . . . . . 5

Əsasən dəqiqdir . . . . . . . . . . . . . . . . . . . . . . . 4

LAYİHƏ

Kifayət qədər dəqiq deyil ........................ 3
Qeyri-dəqiqdir ................................ 2
İnformasiya yoxdur ............................ 1

B) İnformasiyanın təhlili aşağıdakı meyarlar üzrə qiymətləndirilə bilər:

**empirik səviyyə:** şagird hadisələri təsvir edir, lakin onların mahiyyətini başa düşə bilmir;

**nəzəri səviyyə:** daha yüksək səviyyədir. Belə ki bu halda şagird nəinki hadisəni təsvir edir, həm də hadisələrin mahiyyətini izah edir və nəticə çıxarmağı bacarır.

**Dəyərlərin qiymətləndirilməsi**

Müəllim üçün ən çətini dəyərlərin qiymətləndirilməsidir, çünki insan hüquqları dəyərlərinin heç də hamısı bir dərs daxilində bütün şagirdlər tərəfindən mənimsənilə bilməz.

Ola bilər ki, bu dəyərlər bu və ya digər şagirdin şəxsi baxışları sisteminə uyğun gəlməsin. Bunların dərk edilməsi və şagirdlərin şəxsi dəyərlərinə çevrilməsi üçün müəyyən vaxt lazımdır. Buna görə, müəllim, qiymətləndirmə zamanı şagirdlərin mövcud problemə yanaşmasına və ya başqa sözlə desək, "mənəvi baxışların genişliyi"nə üstünlük verməli və qiymətləndirilməlidir.

**A) "Mənəvi baxışların genişliyi"nin qiymətləndirilməsi meyarları:**

- Şagird yeni ideyaları və yeni fəaliyyət növlərini mənimsəyə bilirmi?
- O, işdə yeni metodlardan istifadə etməyə hazırdırmı?
- O, müzakirə və mübahisə zamanı faktları duyğulardan yüksək tutmağı bacarırmı?
- O, yeni faktlarla əlaqədar öz fikrini dəyişirmi?
- O hər kəs barəsində ədalətlə fikir yürüdürmü?
- O, məsələnin bütün cəhətlərini nəzərdən keçirirmi?
- O, stereotip və qərəzli rəylərə meyil göstərirmi?

**B) Dəyərlərin inkişafında özünüqiymətləndirmə.**

Dərsin sonunda müəllim cədvəlləri paylayır və şagirdlərə aşağıdakı suala cavab verməklə cədvəli doldurmağı təklif edir:

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərini necə qiymətləndirirsən?

| Meyarlar | A – əla | B – yaxşı | C – kafi | D – qeyri-kafi |
|---|---|---|---|---|
| Başqalarına hörmət | | | | |
| Başqalarına maraq | | | | |
| Dinləmək bacarığı | | | | |
| Başqalarının ehtiyaclarına humanist yanaşma | | | | |

LAYİHƏ

| | | | | |
|---|---|---|---|---|
| Başqaları haqqında ədalətlə fikir yürütmək | | | | |
| Əməkdaşlıq | | | | |
| Hərəkət etməzdən qabaq düşünmək | | | | |
| Düzlük | | | | |
| Səmimiyyət | | | | |
| Başqalarına kömək | | | | |
| Səhvin etirafı | | | | |

### Qruplarda işin qiymətləndirilməsi

A) Qrupda işləmək bacarığını əhəmiyyətinə görə sıralama metodu ilə qiymətləndirmək olar: şagirdə hər bir qiymətləndirmə meyarına görə müvafiq bal (2-dən 5-ə qədər) verilə bilər.

Qrupda işləmək bacarığının qiymətləndirilməsi meyarı aşağıdakı cədvəl şəklində göstərilib:

əla qiymət (5) – şagird bu bacarığı həmişə nümayiş etdirdikdə; yaxşı qiymət (4) – tez-tez nümayiş etdirdikdə; kafi qiymət (3) – hərdən nümayiş etdirdikdə; qeyri-kafi qiymət (2) isə bu bacarığı, demək olar, heç vaxt nümayiş etdirmədikdə verilir.

Müəllim konkret vəziyyətdən asılı olaraq bəzi meyarlara əlavələr edə, yaxud onları dəyişdirə bilər. Aya, rübə və ya yarımilliyə görə ümumi orta bal mövcud şagirdin qiyməti sayıla bilər.

| Qrupda işləmək bacarığı | həmişə “5” | tez-tez “4” | bəzən “3” | “demək olar, heç vaxt “2” |
|---|---|---|---|---|
| Qrupda şifahi müzakirələrdə iştirak edir. | | | | |
| Başqalarının sözünü kəsmədən dinləyir. | | | | |
| Qrupun digər üzvlərinin danışdıqlarını təkrar nəql edə bilir. | | | | |
| Qrupun işi üçün zəruri olan tapşırıqları yerinə yetirir. | | | | |
| Qrupun digər üzvlərini ümumi işə cəlb edir. | | | | |

LAYİHƏ

B) Şagirdin öz işinə və qrupun fəaliyyətindəki iştirakına verdiyi qiyməti nəzərə almaq faydalıdır.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

Ad ........................................

Tarix ..................

**Qrupun işində fəaliyyətinizi müvafiq balla (1-dən 5-dək) qiymətləndirin:**

- Tapşırığı başa düşdüm və başqalarına izah etdim.
- Başqaları ilə əməkdaşlıq edirdim.
- İşin müəyyən hissəsini yerinə yetirdim.
- Fəallıq göstərir və vaxtdan səmərəli istifadə edirdim.
- İdeyalarımı qrupla bölüşdüm.
- Mənbələrdən istifadə edirdim.

C) Özünüqiymətləndirmə vərəqindən istifadə etməklə şagirdlər həm də qrupun işini bütövlükdə, yəni qrupun onların qarşısında qoyulmuş vəzifənin öhdəsindən necə gəldiyini qiymətləndirə bilərlər.

**Qrupun özünüqiymətləndirmə vərəqi**

1. Qrupun iş ovqatı necədir (bunu rənglə ifadə etmək olar)?

   .....................................................

2. Problemin həllində hamı fəallıq göstərə və ona öz töhfəsini verə bilibmi?

   .....................................................

3. Kimlər passiv və kimlər fəal olub?

   .....................................................

4. Qrupun işi hamını təmin edibmi?

   .....................................................

5. Qrup öz vəzifəsinin öhdəsindən gələ bilib, ya yox?

   .....................................................

**Qrup təqdimatının qiymətləndirilməsi**

Təqdimatın hər bir növünün öz qayda və ənənələri var. Məsələn, şifahi təqdimatın qiymətləndirilməsi zamanı səsin imkanlarından, jestlərdən bacarıqla istifadə olunması, foto və videomaterialların nümayiş etdirilməsi və s. bu kimi amillər nəzərə alınır. Təqdimatın qiymətləndirilməsi üçün meyarların hazırlanması zamanı aşağıdakı göstəricilər nəzərə alınmalıdır:

**Biliklər:** faktlar, problemlər, anlayışlar, ideyalar;

**Əqli vərdişlər:** təhlil, qiymət, göstəricilərin sintezi, yəni məntiqlə düşünmək qabiliyyəti;

**Kommunikativ vərdişlər:** informasiyanı aydın şəkildə təqdim etmək bacarığı.

LAYİHƏ

A) Qrupların təqdimatının dörd səviyyə üzrə qiymətləndirilməsi

Aşağıdakı cədvəldə şifahi təqdimatın qiymətləndirilməsinin dörd səviyyədən ibarət meyarları təklif olunur. Müəllimin istəyindən asılı olaraq bunlar dəyişdirilə və ya əlavələr edilə bilər.

| Meyarlar | IV səviyyə | III səviyyə | II səviyyə | I səviyyə |
|---|---|---|---|---|
| Əsas anlayışlar, problemlər, mövzular, ideyalar | Mükəmməl surətdə seçilir, dəqiq tərifi və təsviri verilir. | Yaxşı seçilir, tərifi və təsviri verilir. | Seçilir, tərifi verilir və təsvir edilir. | Seçilmir, və ya təsviri qarışıq verilir. |
| Faktlar, informasiya | Yanlışlıqlar yoxdur. | Kiçik yanlışlıqlar var. | Səhvlər var. | Yoxdur və ya qeyri-dəqiqdir. |
| Problemə aid göstəricilərin toplanması | Məntiqlə seçir və hər şeyi təşkil edir. | Məntiqlə seçir və bir hissəsini təşkil edir. | Problem üzrə az göstərici tapır. | Problem üzrə göstərilən tapşırıq çox qarışıqdır. |
| Nəticə çıxarmaq bacarığı | Göstəricilərə əsaslanır. | Göstəricilərə əsaslanan məlumatlı nəticələr çıxarır. | Yarımçıq nəticələr çıxarır. | Nəticələr yoxdur və ya dəqiq deyil. |

Səviyyələr arasında fərqlər şagirdlərin öz biliklərini nümayiş etdirə bilməsindən, yəni onların nə dərəcədə səylə öyrənmələri, faktlardan və detallardan nə dərəcədə dürüst və yerində istifadə etməsi ilə izah olunur.

4-cü və 3-cü səviyyələr: şagirdlər anlayışların, problemlərin, ideyaların tərifini verə və bunları izah edə bilir, faktlar arasında qarşılıqlı əlaqəni başa düşür, göstəricilərin qiymətləndirilməsi üçün əqli vərdişlərdən istifadə edirlər (müqayisə, qarşıqoyma, səbəb-nəticə əlaqələri, başlıca amilin müəyyən olunması və s.). Təqdimat zamanı material aydın və dürüst təsvir edilir, nümunə və misallar öz yüksək keyfiyyəti, çıxarılan nəticələr öz məntiqi və savadlılığı ilə seçilir.

2-ci və 1-ci səviyyələr: şagirdlər əsas anlayışları, problemləri izah edə bilmir, faktlar arasında qarşılıqlı əlaqələri yaxşı başa düşə bilmir, faktlardan yersiz istifadə edir, bəzən isə onları saya almırlar. Problemin mahiyyətini açmaqda, nəticələri savadlı və qısa ifadə etməkdə çətinlik çəkir, təqdimatın keçirilmə qaydalarına lazımi diqqət yetirmirlər.

LAYİHƏ

B) Təqdimat mərasimini şagirdlərin özləri də qiymətləndirə bilərlər. Onlar aşağıda göstərilmiş vərəqi doldururlar. Əgər bunu təqdimatı keçirən qrupun üzvləri edirlərsə, o zaman bu, özünüqiymətləndirmə sayılır.

### Qrup təqdimatında özünüqiymətləndirmə vərəqi

Qrupun üzvləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Tarix . . . . . . . . . . . . . . . . . .

Təqdimatın adı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

### 1-dən 5-dək ballar verin

- Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxş idi . . . . . . . . . . . . . . . . . . . . .
- Qrupun hər bir üzvünün öz konkret mövzusu var idi . . . . . . . . . . . . . . . . . . .
- Hamı əlbir və ahəngdar işləyirdi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
- Qrup, bütün sinfi fəal olmağa sövq edirdi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
- Qrupun hər bir üzvü səbirli idi və öz yoldaşlarına kömək edirdi . . . . . . . . . .
- Qrup təqdimat üçün bir neçə üsuldan istifadə etmişdi . . . . . . . . . .. . . . . . . .

### Essenin qiymətləndirilməsi

Esseni adi məktəb inşası kimi ənənəvi üsulla qiymətləndirmək olar. Müəllim, həmçinin aşağıda göstərilmiş meyarlardan istifadə edə bilər:

- esse əsasında mövzunun mahiyyətinin tam açılması;
- faktların və dəlillərin köməyi ilə şəxsi fikrin inandırıcı şəkildə əsaslandırılması;
- terminlərdən, faktlardan düzgün istifadə olunması;
- mülahizələrin aydınlığı və ziddiyyətlərin olmaması, fikrin ardıcıllığı.

### Diskussiyanın qiymətləndirilməsi

Diskussiyanın qiymətləndirilməsi zamanı müəllim şagirdlərin öz fikirlərini təqdim etməsinə, dəlil və sübutların inandırıcı olmasına, polemika bacarıqlarına daha çox diqqət yetirməlidir.

A) Diskussiyaların qiymətləndirilməsinin 1-dən 5-dək müsbət ballara layiq görülə bilən bəzi parametrlərini təklif edirik:

- dəlillərin inandırıcı olması;
- mənbələrdən istifadəetmə bacarığı;
- mülahizələrin məntiqiliyi, ziddiyyətlərin olmaması;
- polemika bacarığı;
- sual vermək, diskussiya üzrə rəqibin dəlillərini zəifləDən əks dəlillər tapmaq məharəti.

B) Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi

Ad . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Tarix . . . . . . . . . . . . . . . . . .

LAYİHƏ

| Qrupda işləmək bacarığı | həmişə "5" | tez-tez "4" | bəzən "3" | demək olar, heç vaxt "2" | heç vaxt "1" |
|---|---|---|---|---|---|
| Fəal iştirak edirdi. | | | | | |
| Tapşırıqları yerinə yetirirdi. | | | | | |
| Öz ideyalarını dəqiq izah edirdi. | | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdi. | | | | | |

## Fəndaxili və fənlərarası inteqrasiyanın zəruriliyi

İnteqrasiya müasir təlimin əsas prinsipi kimi öz aktuallığını qoruyub saxlamaqdadır. Tarix fənninin tədrisində də fəndaxili və fənlərarası əlaqələrin tətbiqi əsasdır və təlimin interaktivliyini təmin etmək üçün başlıca amildir. Ənənəvi təlimdə daha çox şagirdlərə faktlar toplusu verilir və onları əzbərləmək tələb olunurdu. Nəticədə şagirdlər onlara lazım olmayan məsələləri də öyrənməli olurlar. İnteqrativ kurikulum isə fənn sahələrinin kombinasiyasını özündə əks etdirməklə şagirdi obyektə deyil, subyektə çevirir. Burada təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək və bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərlərdən müxtəlif situasiyalarda istifadə etmək, araşdırmaları təkmilləşdirmək, anlamaq, onlarda birbaşa şəxsi iştirak daxildir. Bu cür yanaşma öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmağa köməklik göstərir.

İnteqrasiya necə həyata keçirilməlidir? İnteqrasiya çox zaman biliklərin əlaqələndirilməsi formasında reallaşdırılır. Burada bir fakt haqqında biliyə həmin fakt haqqında başqa fənlərdə verilən məlumat da əlavə olunur. Müasir dövrdə inteqrasiyaya tamamilə başqa cür yanaşılır. Digər fənlərdə olduğu kimi Həyat bilgisi fənn kurikulumunda da inteqrasiya fəndaxili əlaqələr (üfüqi inteqrasiya), fənlərarası əlaqələr (şaquli inteqrasiya) şəklində həyata keçirilir. İnteqrasiya məzmun xətləri, siniflər üzrə gözlənilən təlim nəticələri və məzmun standartları arasında (bilik və bacarıqlar sistemində) reallaşdırılır. Çünki ümumi orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlarla tam orta təhsil səviyyəsində formalaşdırılan bacarıqlar məzmun etibarilə bir-biri ilə sıx əlaqəlidir, biri digərini tamamlayır və inkişaf etdirir.

LAYİHƏ

# Fənndaxili və fənlərarası inteqrasiya

| № | 5-ci sinif |
|---|---|
| | 1. Təbiət və biz |
| **1.1.** | **Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** |
| 1.1.1. | Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir. |
| **1.2.** | **Ekoloji tarazlığın qorunub saxlanmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** |
| 1.2.1. | Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.<br>Az.t. 2.1.1; Coğ. 3.2.3. |
| | 2. Fərd və cəmiyyət |
| **2.1.** | **Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** |
| 2.1.1. | Cəmiyyətin sosial tərkibini (ailə, ictimai birliklər, dövlət) izah edir.<br>Az.t. 1.3.1. |
| 2.1.2. | Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.<br>Az.t. 3.1.1. |
| **2.2.** | **Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** |
| 2.2.1. | İnsan hüquqlarını müdafiə edən qurumları (dövlət, qeyri-dövlət, beynəlxalq) fərqləndirir. |
| 2.2.2. | İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir. |
| **2.3.** | **İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** |
| 2.3.1. | İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir. |
| | 3. Mənəviyyat |
| **3.1.** | **Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** |
| 3.1.1. | Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir. |
| **3.2.** | **İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** |
| 3.2.1. | Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir. |
| 3.2.2. | Dini inancların ümumi və fərqli cəhətlərinin müqayisə edir. |
| **3.3.** | **Mənəvi borcun dərk edilməsini nümayiş etdirir.** |
| 3.3.1. | Mənəvi borcun (təbiət, ailə, cəmiyyət, dövlət qarşısında) əhəmiyyətini izah edir.<br>Az.t. 5.1.2. |
| | 4. Sağlamlıq və təhlükəsizlik |
| **4.1.** | **Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlar nümayiş etdirir.** |
| 4.1.1. | Sağlam həyat tərzinə təsir edən amilləri fərqləndirir.<br>F.t. 1.2.1. |
| **4.2.** | **Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.** |
| 4.2.1. | Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir. |
| 4.2.2. | Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir. |
| **4.3.** | **Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** |
| 4.3.1. | Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir. |

LAYİHƏ

## Mövzuların gündəlik planlaşdırmasına dair tövsiyələr

Hər bir müəllim öz sinfinin imkanlarından çıxış edərək nəzərdə tutulan standartları reallaşdırmaq şərtilə dərsi özü planlaşdıra bilər. Gündəlik dərs planını hazırlayarkən müəllim ilk olaraq öz işini mövzunun, standartın, məqsədin, iş forması və iş üsulunun, inteqrasiya imkanlarının və resursların müəyyənləşdirilməsi ilə başlamalıdır. Alt standartlar təlim məqsədlərinin, inteqrativliyin müəyyən edilməsində mühüm rol oynayır. Belə ki standart seçilir, ona uyğun mövzu, sonra isə həm mövzuya, həm də standarta uyğun təlim məqsədi müəyyənləşdirilir. Bu zaman məqsəd standartın bilik və fəaliyyət komponentlərinə uyğun sadədən mürəkkəbə, mərhələliliyin gözlənilməsi şərtilə müəyyənləşdirilir. Təlim məqsədlərini həyata keçirmək üçün isə müəllim standarta, mövzuya müvafiq təlim forması və təlim üsulu, resurslar müəyyənləşdirməlidir.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal (interaktiv) təlim üsullarından istifadə olunması məqsədəuyğun hesab edilir. Təlim prosesində interaktiv təlim üsullarından istifadə şagirdlərin təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır. Bu prosesin düzgün istiqamətdə aparılması gələcəyimiz olan uşaqlarımızın sağlamlığının qorunması üçün əsas şərtlərdən biridir. Fəal dərsin mərhələləri aşağıdakılardır:

- Motivasiya
- Tədqiqatın aparılması
- Məlumatın mübadiləsi və müzakirəsi
- Ümumiləşdirmə və nəticələrin çıxarılması
- Yaradıcı tətbiqetmə
- Qiymətləndirmə

Dərsin nəticəsi motivasiyanın düzgün yaradılmasından çox asılıdır. Motivasiya 2 əsas prinsip əsasında qurulur: problemlilik və məqsədyönümlülük. Motivasiyanın sonu tədqiqat sualı ilə bitməlidir. Motivasiyanın yaradılmasının bütün mümkün yollarını 3 əsas qrupa bölmək olar:

**1. Rəmzi (simvolik) materialın şərhi.** Bu, rəsm, fotoşəkil, melodiya, ədəbi əsərdən parça, əşya, rəvayət, tapmaca, qrafik, sxem və s. ola bilər. Müəllim materialları təqdim edərkən şagirdlərə aşağıdakı suallarla müraciət edə bilər: "Bu nəyi bildirir?", "Bunun bizim öyrəndiyimizlə nə əlaqəsi var?" və s.

**2. Sual verməyə həvəsləndirmə.** Bu üsulla yaradılan motivasiyada suallar aşağıdakı kimi qurula bilər:

- Öyrənilən mövzu üzrə naməlum olan məsələləri müəyyənləşdirən suallar. "... haqqında nəyi bilirik və nəyi bilmirik?", "... bu haqda nəyi bilmək istəyirik?"

LAYİHƏ

Sual vermə zamanı müəllim fasiltasiyanın köməyi ilə şagirdlərin təfəkkürünü lazımi məcraya yönəltməlidir. Açıq suallar, yəni iki və daha artıq cavab variantı olan suallardan istifadə etmək lazımdır.

- Açıq suallar: yəni iki və daha artıq cavab variantı olan suallar.
- Öyrənilən mövzuya aid açar sözlərin köməyi ilə yaradılan suallar: açar sözlər, xassələr, xüsusiyyətlər, funksiya, növlər, tiplər, rol, əhəmiyyət, səbəb, nəticə, əlaqə, qüsur, üstünlük, struktur, qayda və s. ola bilər.

**3. Problemin müxtəlif yollarla həll edilməsi.** Mövzu ilə bağlı hər hansı problemin müxtəlif yollarla təsnif edilməsi, məsələnin müxtəlif üsullarla uğurlu həlli və yaxud həlli imkanı.

Motivasiyanın yaradılmasından çox şey asılıdır. Hər bir motivasiya necə yaradılmasından asılı olmayaraq tədqiqat sualı ilə bitməli və aparılacaq tədqiqatın nəticələri bu sualın cavabı olmalıdır. Bu baxımdan qoyulacaq tədqiqat sualı ümumi olmaqla yanaşı, standartın, məqsədin reallaşdırılmasına xidmət etməlidir. Tədqiqatın kollektivdə və fərdi deyil, qrup və cütlərdə icrası zamanı tərtib ediləcək iş vərəqləri və burada öz əksini tapacaq tapşırıqlar xüsusi əhəmiyyət daşıyır. Belə ki iş vərəqinin şagirdlərin tədqiqat işini təşkil edən vasitə olduğunu, kiçik qruplara verilən problem və onun həllinin nəticələrini əks etdirdiyini nəzərə alaraq aşağıdakılara diqqət etmək zəruri hesab edilir:

- Məzmunu və tərtibatı cəlbedici olmalıdır;
- Məqsəd və sual aydın və konkret olmalıdır;
- Uşaqların səviyyəsinə uyğun olmalıdır;
- Dərsin məqsədinə uyğun olmalıdır.

Tədqiqatın uğurlu aparılması üçün məqsədə müvafiq tapşırıqlar hazırlanmalıdır. Hazırlanan tapşırıqlar məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsinə yönəldilməlidir.

Tədqiqatın aparılmasından sonrakı mərhələlər (məlumatın mübadiləsi və müzakirəsi, ümumiləşdirmə və nəticələrin çıxarılması, yaradıcı tətbiqetmə, qiymətləndirmə) dərsin yekunlaşdırıcı mərhələləridir.

Tapşırıqları hazırlamazdan öncə şagirdlərin hansı tapşırıqları daha müvəffəqiyyətlə yerinə yetirəcəklərini, hər konkret tapşırığın hansı düşünmə vərdişinə yönəldiyini, hansı tapşırığın yerinə yetirilməsi zamanı təhlil, tənqid və müqayisə edildiyini, tapşırıqların reallaşdırılacaq məzmun standartının tələblərini nə dərəcədə ödədiyini diqqətlə analiz etmək məqsədəuyğundur.

Dərslikdə yer alan bir neçə mövzunun gündəlik planlaşdırılmasını sizə nümunə olaraq təqdim edirik.

LAYİHƏ

## Gündəlik planlaşdırma nümunələri:

*Aşağıdakı gündəlik planlaşma nümunələrindən istifadə etməklə vəsaitdə verilmiş dərs sxemlərinə uyğun gündəlik planlaşma tərtib edə bilərsiniz.*

### Mövzu 1: Təbiətdəki cisim və maddələr

**Alt standart: 1.1.1.** Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.

**Məqsəd:**

1. Cisim və maddələri fərqləndirir.
2. Cisim və maddələrin sadə təsnifatını verir.

**Təlim üsulu:** beyin həmləsi, sxemlərlə iş
**Təlim forması:** kollektiv, kiçik qruplar
**Resurslar:** dərslik, iş vərəqləri, marker, fotoşəkillər, müxtəlif cisim və maddələr

**Dərsin gedişi:**

**Motivasiya:** Müəllim şagirdlərin diqqətini lövhədəki şəkillərə yönəldir. Şagirdlərə aşağıdakı suallarla müraciət edir:

– *Şəkillərdə nə görürsünüz?*
– *Onları necə qruplaşdırmaq olar?*








LAYİHƏ

**Tədqiqat sualı:**

Təbiətdə hansı cisim və maddələr var? Onlar bir-birindən necə fərqlənir?

*Şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.*

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 kiçik qrupa bölünür. Onlara iş vərəqləri paylanır.

**I qrup üçün iş vərəqi.** Cisim və maddələri qruplaşdırın: su, qayçı, rezin, daş, qaşıq, qazan, radio, hava, polad, rezin çəkmə, su damcısı, süd, qələm, dəftər

| Cisim | Maddə |
|---|---|
| | |
| | |
| | |
| | |

**II qrup üçün iş vərəqi.** Verilmiş maddələrdən təşkil olunmuş cisimləri yazın.

| Maddə | Cisim |
|---|---|
| Rezin | |
| Polad | |
| Şüşə | |

**III və IV qrup üçün iş vərəqi.** Maddənin 4 halına uyğun misallar göstərin və fikrinizi əsaslandırın.

| Maddənin halları | Nümunə | Fikrinizi əsaslandırın |
|---|---|---|
| Bərk | | |
| Maye | | |
| Qaz | | |
| Plazma | | |

LAYİHƏ

**Məlumatın mübadiləsi və müzakirəsi:**

**Hər bir qrupun işi müzakirə olunur.**

Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Canlı və cansız təbiətə aid olan bütün əşyalara cisim deyilir. Ətrafımızda gördüyümüz qaşıq, kitab, dəftər, dağ, ağac və s. müxtəlif cisimlərdir. Bütün tanıdığımız cisimlər maddələrdən təşkil olunmuşdur. Maddənin təbiətdə 4 halı mövcuddur. Onlardan biri digərinə çevrilə bilər.

**Yaradıcı tətbiqetmə:**

Dərslikdə verilmiş tapşırıqlar şagirdlərin dəftərində yerinə yetirilərək müəllim tərəfindən yoxlanılır.

**Ev tapşırığı:**

Mətbəxdə istifadə olunan müxtəlif maddələrdən hazırlanmış cisimlərin adlarını yazın.

**Qiymətləndirmə meyarı:** təsnifetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cisim və maddələri fərqləndirməkdə çətinlik çəkir. | Cisim və maddələrin bir qismini fərqləndirir. | Cisim və maddələri yalnız şəklə əsasən fərqləndirir. | Cisim və maddələri nümunələr göstərməklə sərbəst fərqləndirir. |
| Təbiətdəki cisimləri təsnif etməkdə çətinlik çəkir. | Təbiətdəki cisimləri təsnif edərkən qeyri-dəqiqliyə yol verir. | Təbiətdəki cisimlərin bir qismini təsnif edir. | Təbiətdəki cisimləri nümunələr göstərməklə sərbəst təsnif edir. |

LAYİHƏ

## Mövzu: Yol hərəkəti qaydalarına əməl edək

**Alt standart: 4.2.2.** Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.

**Məqsəd:**

1. Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını sadalayır.
2. Yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.

**Təlim üsulu:** beyin həmləsi, rollu oyun
**Təlim forması:** kollektivlə və qruplarla iş
**Resurslar:** dərslik, iş vərəqləri, marker, şəkillər, elektron təqdimat

**Dərsin gedişi:**

**Motivasiya:** Müəllim elektron lövhədə 4 şəkil göstərərək şagirdlərə aşağıdakı suallarla müraciət edir (dərslikdəki şəkildən də istifadə etmək olar):

– *Şəkillərdə nə görürsünüz?*
– *Şəkillərdə gördüyünüz uşaqlardan hansılar qaydalara əməl edir?*




**Tədqiqat sualı:**

Piyadalar üçün nəzərdə tutulan yol hərəkəti qaydaları hansılardır? Onların nə əhəmiyyəti vardır?

*Şagirdlərin fərziyyələri lövhədə qeyd olunur.*

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 kiçik qrupa bölünür. Onlara iş vərəqləri paylanır. İş vərəqlərində müxtəlif şəkillər öz əksini tapır.

LAYİHƏ

## I və II qruplar üçün iş vərəqi

**?** Dərslikdən və paylama materialından istifadə etməklə şəkillərdə piyadaların, əsasən, hansı qaydaları pozduqlarını müəyyənləşdirin.





LAYİHƏ

## III qrup üçün iş vərəqi

? Aşağıda verilmiş yol hərəkəti qaydalarının pozulmasını göstərən səhnəcik hazırlayın.

! *İşıqfor nizamlanan keçidlərdə piyadalar üçün qoyulmuş "keçin", "dayanın" işıq göstəricilərinə ciddi əməl edilməlidir.*

! *Piyadalar küçəni və yolu keçmək üçün yalnız bu məqsədlə ayrılmış körpülərdən, göstəricilər, yol nişanları və ya xətlərlə ayrılmış piyada keçidlərindən istifadə etməlidirlər.*

## IV qrup üçün iş vərəqi

? Sinif yoldaşlarınızı piyada keçidindən keçməyə sövq edən plakat və ya işarə lövhəsi hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi:**

**Hər bir qrupun işi müzakirə olunur.**

Hər qrup digər qrupların işinə əlavələr edir. Bu mərhələdə əyani vəsaitlərə, şəkillərə, elektron təqdimatlara istinad olunur.

**Nəticələrin çıxarılması və ümumiləşdirmə:** Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qayıdır. Dərsin bu mərhələsində şaxələndirmə üsulundan istifadə olunur.

**Yaradıcı tətbiqetmə:**

Dərslikdə verilmiş tapşırıqlar şagirdlərin dəftərində yerinə yetirilir və müəllim tərəfindən yoxlanılır.

**Ev tapşırığı:**

Yol hərəkəti qaydalarının sürücülər tərəfindən pozulmasına dair kiçik təqdimat hazırlamaq

LAYİHƏ

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Piyadaların əməl etməli olduqları yol hərəkət qaydalarını çətinliklə sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarının bir neçəsini sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını müəllimin köməyi ilə sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını nümunələr əsasında sadalayır. |
| Yol hərəkəti qaydalarının əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Yol hərəkəti qaydalarının bir qisminin əhəmiyyətini izah edir. | Yol hərəkəti qaydalarının əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Yol hərəkəti qaydalarının əhəmiyyətini nümunələrlə izah edir. |

LAYİHƏ

MÖVZU 1

# Cəmiyyət – bu bizik

## Hər şey ünsiyyətdən başlayır

**Alt standart:** 3.1.1. Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir.
**Məqsəd:** Ünsiyyəti insanın başlıca mənəvi tələbatı kimi qiymətləndirir.

Tədris ilinin ilk mövzusuna başlamazdan öncə şagirdləri dərsliyin strukturu, ondan istifadə qaydaları ilə tanış etmək zəruridir. Şagirdlərin diqqətinə il ərzində praktik dərslərin, təqdimatların hazırlanması ilə bağlı da məlumat çatdırmağınız məqsədəuyğun hesab olunur.

I dərs saatının ilk dəqiqələrində diaqnostik qiymətləndirmənin aparılması məqsədəuyğundur. Diaqnostik qiymətləndirmə aparmaqla siz yeni tədris ilində öz təlim strategiyanızı necə müəyyənləşdirəcəyinizlə bağlı yeni qərarlar verə biləcəksiniz. Yəni illik planlaşmada hansı mövzulara neçə saat vaxt verməli, gündəlik planlaşma apararkən isə daha hansı məsələlərə toxunacağınızı, resurs seçimini və s. məqamları nəzərdən qaçırmaq olmaz.

Şagirdlərdə idraki fəallığı A blokuna əsasən yarada bilərsiniz. Bu məqsədlə A blokundakı mətn oxunmalı və şagirdlərin ünsiyyət, onun nə üçün vacib olduğu barədə fikirləri dinlənilməli və ehtiyac olarsa, lövhədə qeyd olunaraq müzakirə olunmalıdır.

**Motivasiyanı** şagirdlərin aşağı siniflərdən Həyat bilgisi fənnindən öyrəndiklərini yada salmaqla da yarada bilərsiniz. Bu məqsədlə şagirdlərlə belə bir oyun da keçirə bilərsiniz: Şagirdlərdən bir-birini təqdim etmələrini istəyin. Bu zaman onlar bir-birindən nəyi sevdiyini, adını, soyadını, gələcək arzularını, hansı fənni sevdiklərini, bunun səbəbini və s. aydınlaşdırıb sizə təqdim edə bilərlər. Sonra siz bunu şagirdinizin necə öyrəndiyini soruşaraq onun izahını dinləyin. Təqdimatları dinlədikdən sonra bütün bunların ünsiyyət nəticəsində əldə olunduğunu deyə bilərsiniz.

**Tədqiqat** "Ünsiyyətin həyatımızdakı rolu və əhəmiyyəti nə dərəcədə qiymətlidir?" sualı ətrafında aparılmalıdır. Şagirdlərin verdikləri cavablar flipçartda və yaxud lövhədə qeyd oluna bilər.

Tədqiqata B blokundakı tapşırıqla başlamaq olar. Bu zaman şagirdlər öz parta yoldaşı ilə birlikdə verilmiş şəkilləri müzakirə etməlidirlər. Müzakirə çox vaxt aparmamalıdır.

LAYİHƏ

Paraqrafın nəzəri materialı ilə tanışlıq fasiləli oxu, İNSERT, kiçik qruplarda müzakirələr və digər üsullarla aparıla bilər. Müzakirələrdə bədii əsərlərdən nümunələrə, şəkillərə, videomateriallara, elektron təqdimata, filmlərdən fraqmentlərə ("Ögey ana", "Şərikli çörək" və s.) istinad etmək olar. Təqdim edilən nümunələrdə insanları birləşdirən, onları dost, sirdaş, həyat yoldaşı, qohum edən amillərin olmasına xüsusi diqqət edin.

Virtual ünsiyyətin qurulması məsələsinə də toxunmaq yerinə düşər. Lakin unutmayın ki, bunun müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də vurğulanmalıdır.

F blokundakı tapşırıqlardan yaradıcı tətbiqetmə mərhələsində istifadə edə bilərsiniz. F blokundakı 1-ci tapşırıq ev tapşırığı kimi verilə bilər.

Bu mövzunun planlanmasına 2 saat nəzərdə tutulduğu üçün şagirdlərə mövzu ilə bağlı qabaqlayıcı tapşırıqlar vermək olar. Tövsiyə olunan tapşırıqlardan biri kimi ünsiyyətlə bağlı araşdırma aparıb "Sözün, ünsiyyətin, müsbət və mənfi istiqamətlərə yol açması", "Sözdən lazımi səviyyədə istifadənin gözəlliyi" barədə təqdimatlar hazırlamağı tapşıra bilərsiniz. Yaxud da bu mövzunun ikinci dərsini rollu oyun keçirməklə reallaşdırmaq olar. Rollu oyun zamanı ünsiyyətlə bağlı kiçik ssenarilərin hazırlanmasında şagirdlərin əməyi olarsa, dərs prosesi daha öyrədici və yadda qalan olar.

**Qiymətləndirmə:** Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

**Qiymətləndirmə meyarı:** qiymətləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ünsiyyəti insanın başlıca mənəvi tələbatı kimi qiymətləndirməkdə çətinlik çəkir. | Ünsiyyəti insanın başlıca mənəvi tələbatı kimi tam qiymətləndirə bilmir. | Ünsiyyəti insanın başlıca mənəvi tələbatı kimi qiymətləndirərkən müəllimin köməyindən istifadə edir. | Ünsiyyəti insanın başlıca mənəvi tələbatı kimi faktlar göstərməklə qiymətləndirir. |

LAYİHƏ

## Ailə kiçik cəmiyyətdir

**Alt standart:** 2.1.1. Cəmiyyətin sosial tərkibini izah edir.
**Məqsəd:** Ailəni kiçik cəmiyyət kimi izah edir.

Mövzu ilə bağlı motivasiyanı müxtəlif cür yarada bilərsiniz:

Şagirdlərin fikirlərini A blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz. Və yaxud dərsə şagirdlərin aşağı sinif Həyat bilgisi fənnindən əldə etdikləri bilik və bacarıqlara əsaslanmaqla da başlaya bilərsiniz. Məsələn: Şagirdlərə aşağıdakı sualla müraciət etmək mümkündür:

Ata, ana, . . . . . . . . . . . . . . . Bu ardıcıllığı necə davam etdirmək olar? Ailə nədir?

**Tədqiqat** "Ailə nə üçün kiçik cəmiyyət hesab olunur?" sualı ətrafında aparılmalıdır. Paraqrafın nəzəri materialı ilə tanışlıq fasiləli oxu, İNSERT, kiçik qruplarda müzakirələr və digər üsullarla aparıla bilərlər. "Bəs ailə dedikdə ağlınıza nə gəlir?" sualına şagirdlər müxtəlif cavablar verə bilərlər. Məsələn: kədər, xəyallar, gəzinti, ümid, gələcək planlar, qaydalar, qərarlar və s. Ən əsası isə şagird dərk etməlidir ki, ailə də sosial qrupdur.

Tədqiqatın aparılması zamanı şagirdlər F blokundakı tapşırıqlardan, eyni zamanda aşağıdakı tapşırıqlardan istifadə edə bilər. Bunun üçün şagirdləri cütlərə bölüb onlara aşağıdakı tapşırıqlar yazılmış iş vərəqləri verə bilərsiniz:

- Ailədə yaranan münaqişələr insanların həyatında nə kimi dəyişikliklərə yol açar?
- Ailənin birlikdə mehriban və səadət içərisində yaşaması üçün ailə üzvləri hansı qaydalara riayət etməlidir? Ailədə davranışın qızıl qaydalarını tərtib edin.
- İdeal ailə necə olmalıdır?" mövzusunda kiçik təqdimat hazırlayın.

Verilmiş tapşırıqların icrası qruplarda da aparıla bilər.

Bu mövzunun tədrisində məqsəd ailənin də kiçik bir sosial qrup, kiçik cəmiyyət olduğunu şagirdin dərk edərək izah edə bilməsidir. Əsas etibarilə "Nə üçün ailəni kiçik cəmiyyət, sosial qrup adlandırdıq?" sualının dərsin sonunda, ümumiləşdirmə və nəticə mərhələsində şagirdlər tərəfindən düzgün ümumiləşdirilməsidir. Ona görə də bütün dərsi bu istiqamətdə qurmaq lazımdır.

**Ümumiləşdirməni** aşağıdakı kimi apara bilərsiniz: Ailə kiçik cəmiyyət adlana bilər, çünki xüsusi mürəkkəb insan münasibətlərinə və qan qohumluğuna əsaslanan ailənin hər bir üzvünün özünə görə daşıdığı vəzifə və məsuliyyət var.

LAYİHƏ

Ailə tərbiyəsi geniş imkanlara malikdir. O, ünsiyyət, əmək və şəxsi nümunə, davranışın qiymətləndirilməsi, mükafatlandırma və cəzalandırma kimi təsir formalarından istifadə edərək cəmiyyətə layiqli vətəndaş yetişdirən başlıca sosial birlikdir. Ailə ünsiyyəti uşaqların intellektual qabiliyyətinin stimullaşdırılmasında böyük rol oynayır.

Müzakirəni dahi mütəfəkkirlər Aleksandr Dümanın (maraqlı məlumat qutusunda) sözləri ilə də tamamlaya bilərsiniz.

**Yaradıcı tətbiqetmə** mərhələsində şagirdlərə vaxtı nəzərə almaqla “Ailənizin geneoloji ağacını tərtib edin və sizin həyatınızdakı rolunu göstərin” tapşırığını verə bilərsiniz.

**Ev tapşırığı** kimi cədvəli dəftərə çəkmək və doldurmaq tapşırıla bilər.

| Ailə üzvləri | Həyatınızdakı rolu |
|---|---|
| Baba | |
| Nənə | |
| Ata | |
| Ana | |
| Bacı | |
| Qardaş | |

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ailənin kiçik cəmiyyət olduğunu izah etməkdə çətinlik çəkir. | Ailənin kiçik cəmiyyət olduğunu tam izah edə bilmir. | Ailənin kiçik cəmiyyət olduğunu müəllimin köməyi ilə tam izah edir. | Ailənin kiçik cəmiyyət olduğunu nümunələrlə izah edir. |

LAYİHƏ

# Cəmiyyət – bu bizik

## Mən də bir qrupdayam

**Alt standart:** Cəmiyyətin sosial tərkibini izah edir.
**Məqsəd:** Böyük və kiçik sosial qrupları izah edir.

Şagirdlərdə idrak fəallığı yaratmaq üçün mövzu ilə bağlı problem müəyyənləşdirin. Problemi müəyyənləşdirərkən şagirdlərə suallarla müraciət edə bilərsiniz. Bu suallar şagirdlərin həm əvvəlki biliklərini üzə çıxaracaq, həm də yeni dərsə keçidi yaradacaq. Şagirdlərinizin düzgün istiqamətdə araşdırma aparmaları üçün məqsədəmüvafiq yönəldici suallardan istifadə etmək vacibdir.

Məsələn: – Uşaqlar, divar qəzeti hazırlamaq üçün ilk olaraq nədən başlamaq lazımdır?

**Tədqiqat** "Sosial qruplar hansılardır və onlar bir-birindən necə fərqlənir?" sualı ətrafında aparılmalıdır.

Tədqiqata elə hansısa qrupun yaradılması ilə başlaya bilərsiniz. Bu məqsədlə 4 (şagird sayına müvafiq) qrup yaradaraq onlara F blokundakı 1, 2, 3, 4-cü tapşırıqları icra etmələrini tapşıra bilərsiniz.

Şagirdlərin C blokundakı mətnlə tanışlığı fasiləli oxu, İNSERT, müzakirə, diskussiya üsullarından, eyni zamanda müzakirələr zamanı elektron təqdimatlardan istifadə etməklə aparıla bilər.

C blokundakı xalqlarla bağlı məlumat verilərkən şagirdlərin hansı xalqları tanıdıqlarını, bu xalqların geyimləri və yaxud da milli adət-ənənələri haqqında bildiklərini də müəyyən etmək olar. Müzakirə verilmiş şəkillərə əsasən aparıla bilər. Növbəti mövzuda bu məsələlərə xüsusi olaraq toxunulacaqdır. Müzakirə zamanı aşağıdakı linkdən istifadə edə bilərsiniz. Bu linkdən özünüz də faydalana bilərsiniz.

*https://www.youtube.com/watch?v=W7YiWrT9Q7w&hd=1*

C blokunda sosial qrup olan ictimai birliklər haqqında verilib. Sosial birlik kimi ictimai birliklərin bir neçəsinin adını çəkib, yerinə yetirdikləri işlər haqqında şagirdlərə qısa informasiya verməniz məqsədəuyğundur. Məsələn, "Ana və Uşaq Sağlamlıq Mərkəzi İctimai Birliyi", "Azərbaycan Jurnalistlər Birliyi", "Azərbaycan Qadınları Respublika Cəmiyyəti", "Azərbaycan İnsan Hüquqları Müdafiə Mərkəzi" və s.

LAYİHƏ

Dərsin bu mərhələsində ictimai birliklərin fəaliyyəti ilə bağlı videoçarx da nümayiş etdirmək olar.

*http://apa.tv/video/24697*

F blokundakı tapşırıqlardan qrup işlərinin icrası zamanı istifadə edə bilərsiniz.

Qiymətləndirməni dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Böyük və kiçik sosial qruplar haqqında fikirlərini izah etməkdə çətinlik çəkir. | Böyük və kiçik sosial qruplar haqqında fikirlərini tam izah edə bilmir. | Böyük və kiçik sosial qruplar haqqında fikirlərini müəllimin köməyi ilə tam izah edir. | Böyük və kiçik sosial qruplar haqqında fikirlərini nümunələrlə izah edir. |

LAYİHƏ

# Xalqlar

**Alt standart:** 2.1.1. Cəmiyyətin sosial tərkibini izah edir.
**Məqsəd:** Sosial qrup olan xalqlar haqqında fikirlərini izah edir.

**Motivasiya** mərhələsində BİBÖ cədvəlindən istifadə oluna bilər. Bunun üçün şagirdlərin aşağı sinifdən xalqlar haqqında bildikləri cədvəlin I sütununda, öyrənmək istədikləri (şagirdlərin fikrini bu sahəyə yönəltmək nəzərdə tutulur) cədvəlin II sütununda qeyd olunmalıdır. Cədvəlin III sütunu dərsin ümumiləşdirmə və nəticə mərhələsində doldurulmalıdır.

**Tədqiqat** "Hansı xalqlar var və onlar bir-birindən necə fərqlənir?" sualı ətrafında aparılmalıdır.

C blokunda verilmiş mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. C blokunda verilmiş şəkillər də müzakirə obyekti ola bilər. Belə ki şagirdlərə bu şəkildəki xalqlar, onların adət-ənənələri, geyimləri və s. haqqında bildiklərini üzə çıxarmaq olar. Müzakirə zamanı plakat, elektron təqdimat, videoçarx, müxtəlif şəkillər nümayiş etdirilə bilər.

*https://www.youtube.com/watch?v=W7YiWrT9Q7w&hd=1*
*https://www.youtube.com/watch?v=AS1A6_NFuaE&hd=1*
*https://www.youtube.com/watch?v=dE4r0ZuI2Zw&hd=1*

B blokundakı tapşırığın icrası qruplarda aparıla bilər. Bu tapşırıq xalqlar haqqında verilən məlumata əsasən icra edilməlidir. Bu məqsədlə şagirdlərə əlavə resurslardan – müxtəlif xalqların yeməkləri, geyimləri, adət-ənənələrinə aid şəkillər və yaxud da paylama materialı təqdim edə bilərsiniz. Bu mövzuda Azərbaycanı etnik tərkibinə dair məlumat da yer almışdır. Qruplar bu tapşırığı Azərbaycanı etnik tərkibinə dair məlumata əsasən də icra edə bilər. Bu haqda daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə edə bilərsiniz. Və yaxud da bu materiallardan çap resursu hazırlayaraq şagirdlərə paylama materialı verə bilərsiniz.

*http://www.azerbaijans.com/content_1703_az.html*
*http://www.tarix.gov.az/about/shobeler_qedim.php*

LAYİHƏ

Şagirdlər F blokundakı 2-ci tapşırığı yaradıcı tətbiqetmə mərhələsində, 3-cü tapşırığı isə şagirdlər evdə icra edə bilərlər. Əgər bu tapşırığı sinifdə icra etdirməli olsanız, şagirdlərə həmin xalqlar haqqında paylama materialı verərək tapşırıq 1-dəki cədvələ əsasən tamamlamalarını tapşıra bilərsiniz.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xalqlar haqqında fikirlərini izah etməkdə çətinlik çəkir. | Xalqlar haqqında fikirlərini izah edərkən səhvə yol verir. | Xalqlar haqqında fikirlərini müəllimin köməyi ilə izah edir. | Xalqlar haqqında fikirlərini nümunələrlə izah edir. |

LAYİHƏ

# Cəmiyyət – bu bizik

## Dövlət və dövlətçilik

**Alt standart:** 2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.
**Məqsəd:** Dövlətin cəmiyyətdə idarəedici və təşkilatçı qüvvə olmasını şərh edir.

Bu standartın reallaşdırılması müəllimdən xüsusi bacarıq tələb edir. Belə ki yuxarı siniflərdə bu mövzuda şagirdlərlə müzakirə aparmaq daha asan olduğu halda, 5-ci sinif şagirdləri üçün nisbətən çətindir. Çünki yuxarı siniflərdə artıq şagirdlər Tarix fənnindən müxtəlif bilik və bacarıqlara yiyələniblər, dövlətlər haqqında məlumatlıdırlar. Bu baxımdan düzgün yönləndirici suallardan istifadə etməniz tövsiyə olunur.

Şagirdlərdə idraki fəallıq yaratmaq məqsədilə A bloku müzakirə oluna bilər. Şagirdlərin fikirləri dinlənilməli, ehtiyac duyularsa, yönəldici suallar verilməlidir.

**Motivasiyanı** elektron lövhədə xəritənin nümayiş etdirilməsi ilə də başlamaq olar. Bu zaman "Xəritədəki müxtəlif rənglər nəyi ifadə edir?" sualı ilə şagirdlərə müraciət edə bilərsiniz.




LAYİHƏ

**Tədqiqat** "Dövlətin hansı əlamətləri və vəzifələri var?" sualı ətrafında aparılmalıdır.

Şagirdlər C blokundakı nəzəri materialla fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə tanış ola bilərlər. Dövlətin əlamətləri haqqında şərh verilməzdən öncə şagirdlərə 26 İyun Azərbaycan Silahli Qüvvələr Gününə aid elektron təqdimatın göstərilməsi məqsədəuyğundur.

*https://www.youtube.com/watch?v=YZOGC-DcNr4*

Bu videoçarx nümayiş etdirildikdən sonra (müəyyən hissələr) dövlətin əlamətləri başlığı açılaraq "Bu başlıq altına nələri qeyd edə bilərsiniz?" sualı ilə müraciət oluna bilər. Şagirdlər dövlət rəmzlərini, ordunu, qanunları bura aid edə bilərlər. Səslənən fikirləri lövhədə qeyd etməklə şagirdləri "Bəs dövlət hansı vəzifələri yerinə yetirir?" sualı ətrafında müzakirəyə cəlb edə bilərsiniz. Bu zaman yönəldici suallardan istifadə etmək məqsədəuyğundur.

Tədqiqat qruplarda aparılarsa, F blokundakı 1-ci və 3-cü tapşırıqlardan istifadə edilə bilər. Bunun üçün şagirdlər paylama materialları ilə təmin olunmalıdır. F blokundakı 2-ci tapşırıq evdə icra oluna bilər.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dövlətin cəmiyyətdə idarəedici və təşkilatçı qüvvə olmasını çətinliklə şərh edir. | Dövlətin cəmiyyətdə idarəedici və təşkilatçı qüvvə olmasını müəllimin köməyi ilə şərh edir. | Dövlətin cəmiyyətdə idarəedici və təşkilatçı qüvvə olmasını suallar əsasında şərh edir. | Dövlətin cəmiyyətdə idarəedici və təşkilatçı qüvvə olmasını misallar əsasında şərh edir. |

LAYİHƏ

# Cəmiyyət – bu bizik

## Dövlətim mənə xidmət edir

**Alt standart:** 2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.
3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir.

**Məqsəd:** 1. Dövlətin cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafındakı rolunu izah edir.
2. Vətən qarşısında mənəvi borcunu izah edir.

Şagirdlərdə idraki fəallıq yaratmaq üçün elektron lövhədə dövlətin əlamətləri və vəzifələri qarışıq göstərilərək onlara bunların içərisindən dövlətin vəzifələrinin seçilməsi tapşırıla bilər. Şagirdlər bu vəzifələri seçdikdən sonra **tədqiqat** "Cəmiyyətin həyatında dövlətin rolu nədən ibarətdir?" sualı ətrafında aparılmalıdır.

Dərsə anlayışın çıxarılması üsulundan istifadə etməklə də başlaya bilərsiniz. Bunun üçün flipçartda və yaxud da lövhədə "Dövlətin vəzifələri" yazıla bilər. Şagirdlər rəngli stikerlərə dövlətin vəzifələrini yazıb dairənin kənarlarına yapışdırmalıdırlar.

C blokunda verilmiş mətni şagirdlər İNSERT və fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Bu zaman müzakirələrdə müxtəlif təqdimatlardan, videoçarxlardan istifadə məqsədəuyğundur. Gəncə və Mingəçevirdə yerləşən məcburi köçkünlər şəhərciyinə dair videogörüntü təqdim oluna bilər.

*http://tv.sia.az/ru/reporting/384601-gencede-mecburi-kockunler-ucun-salinan-seherciyin-acilisi-olub*
*http://www.myvideo.az/v/1791080*

F blokundakı 4-cü tapşırıq evə verilə bilər. 1-ci, 2-ci və 3-cü tapşırıqlardan tədqiqatın aparılması mərhələsində istifadə edə bilərsiniz. Qrupların sayına müvafiq olaraq F blokundakı tapşırıqlara müvafiq tapşırıqlar (bu şəkillərlə də ola bilər) hazırlamaqda sərbəstsiniz. Lakin bu zaman hazırladığınız tapşırıqların nəticələrinin tədqiqat sualına uyğunluğuna diqqət edin.

LAYİHƏ

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dövlətin cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafındakı rolunu çətinliklə izah edir. | Dövlətin cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafındakı rolunu müəyyən səhvlərlə izah edir. | Dövlətin cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafındakı rolunu müəllimin köməyi ilə izah edir. | Dövlətin cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafındakı rolunu nümunələrlə izah edir. |
| Vətən qarşısında mənəvi borcunu çətinliklə izah edir. | Vətən qarşısında borcunu izah edərkən fikirlərini tam ifadə edə bilmir. | Vətən qarşısında borcunu müəllimin istiqamətverici sualları əsasında izah edir. | Vətən qarşısında borcunu sərbəst izah edir. |

LAYİHƏ

## Hüquqlarımız qorunur

**Alt standart:** 2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumları fərqləndirir.
2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir.

**Məqsəd:** 1. İnsan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını və beynəlxalq qurumları fərqləndirir.
2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir.

Bu mövzuya illik planlaşmada 2 saat vaxt ayrılmışdır. 2-ci dərs saatında şagirdlər hazırladıqları təqdimatları təqdim etməlidirlər.

Mövzu ilə bağlı **motivasiyanı** müxtəlif cür yarada bilərsiniz:

Şagirdlərin fikirlərini A blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz. Bu zaman lövhədə cədvəl quraraq onu iki qrafaya ayırmaq olar.

| Hüquqlar | Vəzifələr |
|---|---|
| | |

Şagirdlərin qeyd etdikləri fikirləri bu cədvəldə qeyd edərək "Bəs insanların hüquqlarını müdafiə edən qurumlar hansılardır? Onların rolu nədən ibarətdir?" sualları ətrafında **tədqiqat** aparılmalıdır.

Şagirdlərin tədqiqat sualına verdikləri cavablar onların fərziyyələridir. Bu fikirlər dinlənilməli, ehtiyac varsa, lövhədə qeyd olunmalıdır. Ümumiləşdirmə və nəticə mərhələsində bu fikirlərə bir də qayıtmaq lazımdır.

Şagirdlər C blokundakı nəzəri materialla fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə tanış ola bilərlər. Müzakirələrdə qeyri-hökumət təşkilatları, fondlar, beynəlxalq qurumlarla bağlı əlavə məlumatlar vermək məqsədəuyğundur. Tədqiqat qruplarda aparılarsa, F blokundakı 1 və 2-ci tapşırıqlardan istifadə oluna bilər. 2-ci və 3-cü tapşırıqlar isə təqdimatın hazırlanmasını nəzərdə tutur. Bu təqdimatlar şagirdlər arasında bölüşdürülməlidir. Təqdimatların hazırlanması cütlərə də tapşırıla bilər.

Təlim prosesində F blokundakı tapşırıqlarla yanaşı, aşağıdakılardan da istifadə etmək olar. Bunun üçün şagirdlərə paylama materialı təqdim etmək lazımdır.

LAYİHƏ

**Tapşırıq 1.** BMT tərəfindən qəbul olunmuş "Uşaq Hüquqları haqqında Konvensiya" ilə tanış olun və cümlələri tamamlayın.

Uşaq Hüquqları haqqında Konvensiya ___________ ildə ___ tərəfindən qəbul olunmuşdur. Bu Konvensiya _____maddədən ibarətdir. Konvensiyanın əsas müddəaları aşağıdakılardır:

| Təhsillə bağlı | Sağlamlıqla bağlı | Həyat tərzi ilə bağlı |
|---|---|---|
| | | |

**Tapşırıq 2.** Dərslikdəki "Hüquqlarımız qorunur" mövzusunu oxuyun və aşağıdakı mətndə düzgün olan cümlələri seçin:

1. Dövlətin vəzifəsi yalnız insanların hüquqlarını müdafiə etməkdir.
2. BMT 1945-ci ildə yaradılmışdır.
3. BMT-nin Uşaq Hüquqları Konvensiyası 1959-cu ildə qəbul edilmişdir.
4. ATƏT-in siyasətinə görə bir dövlətdə insan hüquqları pozularsa, digər dövlətlər onun vətəndaşlarını müdafiə edə bilməz.
5. Pulsuz təhsil almaq hər uşağın vəzifəsidir.
6. UNESKO, UNICEF və ATƏT hüquqları müdafiə edən beynəlxalq təşkilatlardır.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını və beynəlxalq qurumları çətinliklə fərqləndirir. | İnsan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını və beynəlxalq qurumların bir qismini fərqləndirir. | İnsan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını və beynəlxalq qurumları müəllimin köməyi ilə fərqləndirir. | İnsan hüquqlarını müdafiə edən qeyri-hökumət təşkilatlarını və beynəlxalq qurumları sərbəst fərqləndirir. |

LAYİHƏ

Təqdimat 14-cü səhifədəki meyarlar əsasında qiymətləndirilməlidir.

Təqdimatın hazırlanmasına verilən tələblərlə bağlı əlavə məlumatı aşağıdakı mənbələrdən əldə edə bilərsiniz.


1. Z.Veysova. Fəal təlim metodları. Bakı, 2007
2. *http://festival.1september.ru/articles/414629/*

# Cəmiyyət – bu bizik

## Bizim tələbatlarımız

**Alt standart:** 2.3.1. İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir.
**Məqsəd:** İstehsal prosesi üçün vacib olan iqtisadi resurs və iqtisadi vasitələri fərqləndirir.

A blokunda verilmiş motivasiya ilə dərsə başlaya bilərsiniz. Bunun üçün beyin həmləsi üsulundan istifadə etmək olar. Şagirdlərin qeyd etdikləri fikirləri lövhədə yaza bilərsiniz. **Motivasiyanı** aşağıdakı kimi də yaratmaq mümkündür:

Bu ifadələr arasında nə kimi əlaqə vardır?

Tələbat__________İstehsal

**Tədqiqat** "İstehsal üçün nələr tələb olunur? İqtisadi resurslar və vasitələr hansılardır?" sualları ətrafında aparılmalıdır.

Şagirdlər C blokundakı nəzəri materialla fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə tanış ola bilərlər. Parça istehsalını əks etdirən sxem mütləq müzakirə olunmalıdır. Şagirdlər dərk etməlidirlər ki, iqtisadi resurs, iqtisadi vasitə və insan əməyi olmadan istehsal prosesi mümkün deyildir. Verilmiş şəkillər də bu baxımdan təhlil olunmalıdır. Bütün işlər məhz məqsədə istiqamətlənməlidir.

Müzakirələr zamanı aşağıdakı linklər də nümayiş etdirilə bilər.

*https://www.youtube.com/watch?v=XOli3FW6100*
*https://www.youtube.com/watch?v=rhBcQMHDIAc*

Tədqiqat qruplarda icra olunarsa, bu zaman F blokundakı və nümunə kimi təqdim olunan tapşırıqlardan istifadə etmək mümkündür. Bu kimi tapşırıqları özünüz də hazırlaya bilərsiniz. Ancaq standartın tələbini mütləq nəzərə alın.

**Tapşırıq 1.** Verilmiş iqtisadi resurs və vasitələri cədvəlin müvafiq xanasında yerləşdirin.

*binalar, zavod, alətlər, yol, ət, pendir, rabitə, tikinti, şüşə, ağac, üzüm, soyuducu, bina, kombayn, dəzgah, çay bitkisi, insan əməyi, neft, tikiş maşını*

| iqtisadi resurs | iqtisadi vasitə |
|---|---|
| | |

LAYİHƏ

F blokundakı 1-ci tapşırıq ***yaradıcı tətbiqetmə*** mərhələsində, 2-ci tapşırıq isə ***evdə*** yerinə yetirilə bilər.

Mövzuya ayrılmış ikinci saatda bank sisteminin insanların həyat tərzinin rahatlaşdırılması, ondan səmərəli istifadənin uğurları, eləcə də nəticələri haqqında təqdimatlar vermək olar. Digər tövsiyə olunan mövzu isə bankomatlardan, eləcə də nəqliyyat kartlarından düzgün istifadənin yolları haqqında təqdimatlar, buklet və bu kimi şagirdlərin fəaliyyətə cəlb olunmasına şərait yaradan üsul və vasitələrdən istifadəsi barədə ola bilər.

Müasir dövrdə tələbatlarımızın və istəklərimizin çox olması xərclərimizin də artmasına gətirib çıxarır. Bunun üçün şagirdlərə puldan düzgün istifadə və qənaətin yolları haqqında tapşırıqların verilməs zəruridir. Qeyd edilən hər bir tapşırıq tövsiyə xarakterlidir. Hər bir müəllim öz sinifinin bilik və bacarıqlarına görə tapşırıqları müəyyən etməkdə sərbəstdir.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İqtisadi resursları və iqtisadi vasitələri çətinliklə fərqləndirir. | İqtisadi resursları və iqtisadi vasitələrin bir qismini fərqləndirir. | İqtisadi resursları və iqtisadi vasitələri müəllimin köməyi ilə fərqləndirir. | İqtisadi resursları və iqtisadi vasitələri sərbəst fərqləndirir. |

LAYİHƏ

MÖVZU 1

# Ətraf mühit və sağlamlıq

## Sağlam həyat tərzi

**Alt standart:** 4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.
**Məqsəd:** Sağlamlığın müxtəlif aspektlərini fərqləndirir.

Mövzunun əvvəlində verilmiş material şagirdlərlə birlikdə müzakirə olunmalıdır. Bu zaman yönəldici suallardan istifadə vacibdir. Şagirdlərin fikirləri lövhədə ardıcıl olaraq qeyd olunmalıdır. Növbəti addımda "Bəs bu qeyd etdiklərinizi hansı başlıqlar altında qruplaşdıra bilərik?" sualı ilə müraciət etmək məqsədəuyğun hesab olunur. Dərsin sonunda bu fikirlərə mütləq qayıdılmalıdır.

Şagirdlərdə idraki fəallıq atalar sözü ilə də yaradıla bilər.

*Sağlam bədəndə*
*sağlam ruh olar.*

– Bu atalar sözünü necə başa düşürsünüz?
– Sağlamlığa nələr təsir edir?

**Tədqiqat** "Sağlamlığın hansı aspektləri vardır?" sualı ətrafında aparılmalıdır. Tədqiqat sualına şagirdlərin verdikləri cavablar flipçartda və yaxud da lövhədə qeyd oluna bilər.

Növbəti mərhələdə C blokundakı nəzəri məlumat B blokuna qədər şagirdlərə oxutdurularaq müzakirə olunmalıdır. Bu tapşırıq elektron lövhədə təqdim olunmaqla və yaxud dərslikdən oxunmaqla kollektivdə icra oluna bilər. Və yaxud 4 qrupda müzakirə aparılaraq fikir əsaslandırıla bilər.

C blokundakı sonuncu abzasa keçməzdən öncə "*Siz hansı idman növü ilə məşğul olursunuz? Sizcə, idmanın insan sağlamlığında nə kimi rolu var? Çox qaçan zaman təngnəfəs olursunuzmu? Bu uzun müddətmi davam edir?*" sualları ilə şagirdlərə müraciət edə bilərsiniz. Bu zaman onlar müxtəlif cavablar verəcəklər. Sinifdə 2 şagird seçib oyun da keçirə bilərsiniz. Şagirdlər 1 dəqiqə ərzində oturub-durmalıdırlar. Sonra onların neçə dəfə bu hərəkəti etdikləri və nə qədər müddətdən sonra tənəffüslərinin bərpa olunduğu müəyyən oluna bilər. Bu oyunun məqsədi şagirdlərə idmanla nə qədər çox məşğul olsalar, ağciyərlərin həyat tutumunun da bir o qədər artmış olacağını bildirməkdən ibarətdir.

LAYİHƏ

Lakin bütün dərsi fiziki sağlamlığa həsr etmək olmaz. Eyni zamanda mənəvi və emosional sağlamlığa dair filmlərdən nümunələr, müxtəlif göz oxşayan şəkillər, musiqinin əhvali-ruhiyyəyə təsiri və s. kimi məsələlərə də yer ayrılmalıdır.

Tədqiqatın aparılması zamanı F blokundakı tapşırıqlardan istifadə etmək mümkündür. Sonuncu tapşırıq evdə icra üçün nəzərdə tutulub.

Mövzunun sonunda sağlamlığın 3 aspekti haqqında şagirdlərin öyrəndiklərini aşağıdakı cədvəl üzrə qruplaşdırmaq olar.

| Fiziki sağlamlıq | Emosional sağlamlıq | Mənəvi sağlamlıq |
|---|---|---|
| | | |

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sağlamlığın aspektlərini çətinliklə fərqləndirir. | Sağlamlığın yalnız bir aspektini fərqləndirir. | Sağlamlığın aspektlərini müəllimin köməyi ilə fərqləndirir. | Sağlamlığın aspektlərini nümunələr əsasında sərbəst fərqləndirir. |

LAYİHƏ

## Təhlükəsiz kompüter

**Alt standart:** 4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.
4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.

**Məqsəd:** 1. Kompüterdən düzgün istifadə etməməyin insanın fiziki və emosional sağlamlığına təsirini fərqləndirir.
2. Kompüterdən düzgün istifadə etmədikdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.

Mövzu ilə bağlı **motivasiyanı** müxtəlif cür yarada bilərsiniz:

a) Şagirdlərin fikirlərini A blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz.

b) Dərsə şagirdlərin müşahidələri, Həyat bilgisi fənnindən əldə etdikləri bilik və bacarıqlara əsaslanmaqla da başlaya bilərsiniz. Bunun üçün şagirdlərə "Kompüterin həyatımızda nə kimi rolu vardır?" sualları ilə müraciət etməniz məqsədəuyğundur. Şagirdlərin fikirləri dinlənilməli, ehtiyac varsa, yönəldici suallar verilməlidir.

**Tədqiqat** "Nə zaman kompüter bizim üçün təhlükəyə çevrilə bilər?" sualı ətrafında aparılmalıdır.

Tədqiqatın aparılmasına C blokundakı nəzəri materialın izahı ilə başlamaq olar. Bu məqsədlə elektron təqdimatdan, şəkillərdən və başqa əyani vəsaitlərdən istifadə edə bilərsiniz. Bu zaman dərsi mühazirə deyil, daha çox diskussiya şəklində aparmaq vacib şərtdir. Nəzəri material fasiləli oxu üsulundan istifadə edilməklə də araşdırıla bilər.

C blokunda verilmiş "Sağlamlığınıza biganə qalmayın" guşəsi də şagirdlərlə müzakirə olunmalıdır. Şagirdlər bura həyatda rast gəldikləri, eşitdikləri, müşahidə etdikləri başqa əlamətləri də əlavə edə bilərlər. Qeyd olunanlar, əsasən, fiziki sağlamlığa dair məsələləri əhatə edir. Bura emosional sağlamlığa təsiri də əlavə etmək olar.

Nəzərə alın ki, bu mövzuda 2 standart reallaşır. "Kompüter otaqlarında hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır?" sualına şagirdlər cavab verdikdən sonra videoçarx nümayiş etdirilə bilər. Şagirdlər bu haqda aşağı siniflərdən müəyyən qədər məlumatlıdırlar.

*https://www.youtube.com/watch?v=qseCe977zMY*

LAYİHƏ

F blokundakı tapşırıqlardan qrup işlərində və yaxud da ev tapşırığı olaraq istifadə edə bilərsiniz.

**Qiymətləndirmə.** Təlim məqsədlərinə nail olmaq dərəcəsini aşağıdakı meyarlar üzrə qiymətləndirə bilərsiniz:

**Qiymətləndirmə meyarı:** fərqləndirmə, izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Kompüterdən düzgün istifadə etməməyin insanın fiziki və emosional sağlamlığına təsirini fərqləndirməkdə çətinlik çəkir. | Kompüterdən düzgün istifadə etməməyin insanın fiziki və emosional sağlamlığına təsirini müəllimin köməyi ilə fərqləndirir. | Kompüterdən düzgün istifadə etməməyin insanın fiziki və emosional sağlamlığına təsirini müəyyən səhvlərlə fərqləndirir. | Kompüterdən düzgün istifadə etməməyin insanın fiziki və emosional sağlamlığına təsirini nümunələr əsasında fərqləndirir. |
| Kompüterdən düzgün istifadə etmədikdə yarana biləcək təhlükəli və xoşagəlməz halları çətinliklə izah edir. | Kompüterdən düzgün istifadə etmədikdə yarana biləcək təhlükəli və xoşagəlməz halların bir qismini izah edir. | Kompüterdən düzgün istifadə etmədikdə yarana biləcək təhlükəli və xoşagəlməz halları müəllimin köməyi ilə izah edir. | Kompüterdən düzgün istifadə etmədikdə yarana biləcək təhlükəli və xoşagəlməz halları faktlarla izah edir. |

LAYİHƏ

MÖVZU 3

# Ətraf mühit və sağlamlıq

## Sağlamlığımız təhlükədədir

**Alt standart:** 4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.
4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

**Məqsəd:** 1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.
2. Texnogen fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

Şagirdlər bu mövzunun köməyi ilə insan sağlamlığına zərər yetirə biləcək xoşagəlməz və təhlükəli halları (evdə, küçədə, məktəbdə), bu zaman yarana biləcək təhlükəni qiymətləndirmə bacarığına yiyələnəcəklər. Eyni zamanda fövqəladə hadisələri təbii və texnogen olmaqla iki qrupda qruplaşdıracaqlar.

Dərsə başlamaq üçün A blokunda verilmiş **motivasiyadan** faydalana bilərsiniz. Bunun üçün şagirdlər həyatda rastlaşdıqları, şahidi olduqları və eşitdikləri ilə yanaşı, aşağı siniflərdən Həyat bilgisi, Azərbaycan dili fənlərindən əldə etdikləri bilik və bacarıqlara əsaslanmalıdırlar. Şagirdlərin fikirləri səslənərkən "*Səncə, səbəb nədir? Kim tərəfindən bu törədilib?*" sualları ilə müraciət olunması məqsədəuyğundur.

**Tədqiqat** "Məişətdə və ictimai yerlərdə baş verə biləcək təhlükələr hansılardır?" sualı ətrafında aparılmalıdır. Alınan cavabları lövhədə və yaxud da flipçartda çəkilmiş sxemdə qeyd etmək məqsədəuyğundur. Dərsin **ümumiləşdirmə** və **nəticə** mərhələsində bu fərziyyələrə qayıtmaq vacibdir.

C blokunda verilmiş mətnə keçməzdən öncə şagirdlərdən aldığınız cavablar əsasında lövhədə sxem quraraq fövqəladə hadisələri qruplaşdırın:




Bu qruplaşma aparıldıqdan sonra hər iki anlayışa açıqlama gətirilərək "Bayaq sizin sadaladıqlarınıza baxaq. Bu sadalananları hansı başlıq altında qruplaşdırmaq olar?" İmkan yaradın ki, şagirdlər bunu özləri etsinlər. Məntiqi nəticə çıxartmağı öyrənsinlər.

LAYİHƏ

C blokundakı mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Müzakirə zamanı məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz hallara dair plakat, elektron təqdimat və videomateriallar nümayiş etdirilə bilər.

*https://www.youtube.com/watch?v=bGQjovMs6Cs*

B blokundakı tapşırıqla yanaşı, şagirdlərə müxtəlif situasiyalar yazılmış tapşırıqlar da vermək mümkündür. Bu zaman tapşırığın şərtinə uyğun olaraq tədqiqat qrupda və cütlərlə aparıla bilər. F blokundakı tapşırıqlardan bu məqsədlə istifadə edə bilərsiniz. Tapşırıqların icrası zamanı şagirdlər həm verilmiş situasiya zamanı baş verə biləcək təhlükə (bu zədələnmə, yanma, zəhərlənmə, suda boğulma və s. ola bilər), həm də hansı təhlükəsizlik qaydalarına əməl etməli olduqlarını müəyyənləşdirə bilərlər.

Verilmiş şəkillərin də müzakirəsini təşkil edin. Xüsusən çox vaxt artıq yuxarı sinif olduqlarına görə şagirdlər məktəbdən evə, evdən məktəbə tək gedib-gəlirlər. Bu məsələləri bilmələrində böyük fayda vardır. Bu eyni zamanda növbəti dərsə keçidi təmin etmiş olar.

Ev tapşırığı olaraq şagirdlərə növbəti dərsin qurulmasında da istifadə edə biləcəyiniz texnogen və yaxud təbii fövqəladə hadisələrdən biri haqqında kiçik esse yazmalarını tapşıra bilərsiniz. Növbəti dərsdə yazılmış esselərin içərisindən yol qəzaları haqqında olanlarından motivasiya yaratmaq məqsədilə istifadə edə bilərsiniz.

**Qiymətləndirmə meyarı:** izahetmə, qiymətləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah etməkdə çətinlik çəkir. | Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halların bir qismini izah edir. | Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları tablo üzərində müəllimin istiqamətverici sualları əsasında izah edir. | Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları sərbəst izah edir. |
| Texnogen fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirməkdə çətinlik çəkir. | Təbii və texnogen fövqəladə hadisələri fərqləndirir, bu zamanı yarana biləcək təhlükənin bir neçəsini qiymətləndirir. | Texnogen fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni müəllimin istiqamətverici sualları əsasında qiymətləndirir. | Texnogen fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni situasiyaya uyğun sərbəst qiymətləndirir. |

LAYİHƏ

# Ətraf mühit və sağlamlıq

## Yol nişanları nə üçündür?

**Alt standart:** 4.2.2. Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.
**Məqsəd:** Yol nişanlarının əhəmiyyətini izah edir.

Mövzunun tədrisinə əvvəlki dərsdə verilmiş ev tapşırığının yoxlanılması ilə başlaya bilərsiniz. Bu esselərin içərisindən yol qəzaları haqqında olanı seçib **motivasiya** yaratmaq məqsədilə istifadə etmək olar.

Şagirdlərə "Hansı yol qəzalarının şahidi olduqları, bunların səbəbləri, insan nə kimi xəsarətlər ala bilər?" kimi suallar verə bilərsiniz.  Sualları cavablandırarkən şagirdlər Həyat bilgisi fənni üzrə aşağı siniflərdə əldə etdikləri bilik və bacarıqlara, müşahidələrinə əsaslanmalıdırlar. Şagirdlərin dedikləri qeyd olunmalıdır.

A blokundakı sxemə əsasən də motivasiya yaratmaq olar. Sxemdə "yol nişanları" yazılmalıdır.

**Tədqiqat** "Yol nişanları hansılardır və onların əhəmiyyəti nədir?" sualı ətrafında aparılmalıdır.

C blokundakı mətn fasiləli oxu üsulundan istifadə etməklə oxutmaq olar. Şagirdlərin fikirlərini dərslikdə verilmiş yol nişanlarına yönəldərək "Bu yol nişanlarının göstərişlərinə necə əməl edirsiniz?" sualı ətrafında qısa müzakirə keçirə bilərsiniz.

B blokundakı tapşırığın icrası məqsədilə şagirdlər cədvəli tamamlamalıdırlar. Bu zaman onlara şəkillər, yol qəzaları haqqında kiçik  mətnlər paylana bilər və yaxud videoçarx elektron şəkildə nümayiş etdirilə bilər. Şagirdlərin sayından asılı olaraq tapşırıq qruplarda və yaxud da cütlərdə icra oluna bilər.

Tədqiqatın aparılması məqsədilə şagirdlər aşağıdakı tapşırığı da icra edə bilərlər:

- Cədvələ müvafiq yol nişanının şəklini çəkin və əhəmiyyətini yazın.

| Yol nişanının mənası | Yol nişanı işarəsi | Yol nişanının əhəmiyyəti |
|---|---|---|
| İlk tibbi yardım məntəqəsi | | |
| Yanacaq doldurma məntəqəsi | | |
| Piyada keçidi | | |
| Dayanmadan keçmək qadağandır. | | |

LAYİHƏ

F blokundakı tapşırıqlardan da tədqiqatın aparılmasında istifadə oluna bilər. 4-cü və 5-ci tapşırıqların ev tapşırığı olaraq verilməsi məqsədəuyğundur. Şagirdlər 5-ci tapşırığa yaradıcı yanaşa bilərlər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yol nişanlarının əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Yol nişanlarının bir qisminin əhəmiyyətini izah edir. | Yol nişanlarının əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Yol nişanlarının əhəmiyyətini nümunələrlə izah edir. |

LAYİHƏ

# Ətraf mühit və sağlamlıq

## Yol hərəkəti qaydalarına əməl edək

**Alt standart:** 4.2.2. Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.
**Məqsəd:** 1. Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını sadalayır.
2. Yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.

Şagirdlərin bir çoxu artıq məktəbə tək gəlib-gedir. Uşaqların iştirakı ilə baş verən yol nəqliyyat hadisələrinin çoxu onların düşünülməmiş hərəkətləri nəticəsində baş verir. Bu baxımdan verilmiş mövzu şagirdləri məktəbdən evə yollanarkən daha ağıllı davranmağa, yol hərəkəti qaydalarına riayət etməyə yönəldir.

Mövzu ilə bağlı **motivasiyanı** müxtəlif cür yarada bilərsiniz:

Şagirdlərin fikirlərini A blokundakı şərhə yönəltməklə idraki fəallıq yarada bilərsiniz. Şagirdlər verilmiş şəklə əsasən kimin düz, kimin səhv etdiyini müəyyənləşdirməlidirlər.

**Motivasiya** mərhələsində BİBÖ cədvəlindən də istifadə oluna bilər. Bunun üçün şagirdlərin aşağı sinifdən bu haqda bildikləri cədvəlin I sütununda, öyrənmək istədikləri (şagirdlərin fikrini bu sahəyə yönəltmək nəzərdə tutulur) cədvəlin II sütununda qeyd olunmalıdır. Cədvəlin III sütunu dərsin **ümumiləşdirmə** və **nəticə** mərhələsində doldurulmalıdır.

**Tədqiqat** "Piyadalar hansı yol hərəkəti qaydalarına əməl etməlidirlər? Yol hərəkəti qaydalarının əhəmiyyəti nədir?" sualı ətrafında aparılmalıdır.

Şagirdlər C blokundakı nəzəri materialla fasiləli oxu, müzakirə üsullarından istifadə etməklə tanış ola bilərlər. Bu zaman müzakirələrdə müxtəlif vodeoçarxların nümayişi məqsədəuyğundur.

*https://www.youtube.com/watch?v=bGQjovMs6Cs*

B blokundakı tapşırıq fərdi və yaxud da cütlərdə icra oluna bilər. Tapşırığı icra edərkən şagirdlər aşağı siniflərdən əldə etdikləri bilik və bacarıqlara əsaslanmalıdırlar. Tədqiqat qruplarda aparılarsa, hər qrupa müxtəlif tapşırıqlar verilə bilər. Bu məqsədlə F blokundakı tapşırıqlardan istifadə edə bilərsiniz.

Yol hərəkəti haqqında Azərbaycan Respublikasının Qanunu ilə aşağıdakı mənbədən də tanış ola bilərsiniz:

*http://www.mia.gov.az/index.php?/az/content/262/*

LAYİHƏ

Piyada mədəniyyəti ilə bağlı əlavə materialları bu mənbələrdən əldə edə bilərsiniz:

*http://timpolice.ru/2015/06/15/kultura-peshexodov/*

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilməlidirlər.

**Qiymətləndirmə meyarı:** sadalama, izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Piyadaların əməl etməli olduqları yol hərəkət qaydalarını çətinliklə sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarının bir neçəsini sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını müəllimin köməyi ilə sadalayır. | Piyadaların əməl etməli olduqları hərəkət qaydalarını nümunələr əsasında sadalayır. |
| Yol hərəkəti qaydalarının əhəmiyyətini izah etməkdə çətinlik çəkir. | Yol hərəkəti qaydalarının bir qisminin əhəmiyyətini izah edir. | Yol hərəkəti qaydalarının əhəmiyyətini müəllimin köməyi ilə izah edir. | Yol hərəkəti qaydalarının əhəmiyyətini nümunələrlə izah edir. |

LAYİHƏ

## Təbiətdəki cisim və maddələr

**Alt standart:** 1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.
**Məqsəd:** 1. Cisim və maddələri fərqləndirir.
2. Təbiətdəki cisimlərin sadə təsnifatını verir.

A blokunda verilmiş şəkil əsasında müzakirə apara bilərsiniz. Bu zaman şagirdlər şəkildə gördükləri cisimlərin adlarını qeyd etməlidirlər. **Motivasiyanı** fərqli də yaratmaq olar. Bu sizdən bir az yaradıcılıq tələb edir. Məsələn: şagirdlərə (bu qrupa və yaxud da cütlərə tapşırıla bilər) müxtəlif bu kimi şəkillər təqdim edərək şəkildə gördükləri cisimlərin adlarını qeyd etməyi tapşırmaq olar. Onlar bu şəkil ətrafında cisimlərin adlarını qeyd edə və yaxud da rəngli stikerlərə yazıb yapışdıra bilərlər. Şagirdlərin adını qeyd etmədikləri cism varsa, bu zaman səbəbini soruşub şagirdin fikrini əsaslandırmasına imkan yaratmaq lazımdır. Əgər o səhv fikir söyləyərsə, dərsin sonunda mütləq bu fikrin üzərinə qayıdılmalı və yanlış anlaşılmanın qarşısı alınmalıdır.

**Tədqiqat** "Cisim və maddələr bir-birindən necə fərqlənir? Onları necə təsnif etmək olar?" sualları ətrafında aparılmalıdır.

Sonrakı mərhələdə C blokundakı mətnin fasiləli oxu, İNSERT, kiçik qrupda müzakirə üsullarından birindən istifadə olunmaqla oxunulması məqsədəuyğundur. Bu şagirdlərin mövzunu mərhələli öyrənmələrinə imkan yaradır.

$B_1$ blokundakı tapşırıq kollektivlə icra oluna bilər. Bu zaman siz əlavə şəkillərdən və yaxud əyani vasitə kimi müxtəlif ölçülü çəngəl, kolba, fincan və s. də istifadə edə bilərsiniz. Şagirdlərin yerinə özünüz açıqlama verməməli, onlara fikirlərini demələrinə imkan yaratmağa çalışın. Bu tapşırıqdan şagirdlər müxtəlif böyüklükdə olan iki çəngəl və yaxud qaşığın eyni formalı, lakin müxtəlif həcmli, bir parça plastilindən hazırlanmış fil və tülkünün isə eyni həcmli, müxtəlif formalı olduğu fikrinə gəlməlidirlər.

$B_2$ blokundakı şəkillərə əsasən isə eyni maddədən müxtəlif cisimlər, müxtəlif maddələrdən isə eyni cisimlərin hazırlandığı qənaətinə gəlməlidirlər.

C blokunda maddənin 4 halına aid nəzəri material da öz əksini tapıb. Yaxşı olar ki, imkan dairəsində elektron təqdimatdan, sinifdəki resurslarınızdan, şagirdlərin malik olduqları vəsaitlərdən faydalanasınız. Şagird bunu əyani görməli və fərqləndirməlidir. Şagirdlərdə praktik bacarıqlar formalaşdırılmalıdır. Maddənin plazma halı haqqında elektron təqdimat nümayiş etdirilə bilər.

LAYİHƏ

F blokundakı tapşırıqlar yaradıcı tətbiqetmə mərhələsində və evdə icra oluna bilər. 3-cü tapşırıqda düzgün cavab III çıxışdır.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə, təsnifetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cisim və maddələri fərqləndirməkdə çətinlik çəkir. | Cisim və maddələrin bir qismini fərqləndirir. | Cisim və maddələri yalnız şəklə əsasən fərqləndirir. | Cisim və maddələri nümunələr göstərməklə sərbəst fərqləndirir. |
| Təbiətdəki cisimləri təsnif etməkdə çətinlik çəkir. | Təbiətdəki cisimlərin bir qismini təsnif edir. | Təbiətdəki cisimləri təsnif edərkən qeyri-dəqiqliyə yol verir. | Təbiətdəki cisimləri nümunələr göstərməklə sərbəst təsnif edir. |

LAYİHƏ

MÖVZU 2

# Təbiəti gəzək və tanıyaq

## Mühit amilləri və təbiət hadisələri

**Alt standart:** 1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.
1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.

**Məqsəd:** 1. Mühit amillərini qruplaşdırır.
2. Təbiət hadisələrinin sadə təsnifatını verir.
3. Canlıların həyatında mühitin rolunu əsaslandırır.

Mövzuya başlamaq üçün A blokunda verilmiş şəkli şagirdlərlə müzakirə edərək hansı canlıları müşahidə etdikləri müəyyən olunmalıdır. Sonra bu canlıların yaşadıqları mühitin təbii mühit olduğu onlara izah edilməlidir.

**Tədqiqat** "Mühit amillərini və təbiət hadisələrini necə qruplaşdırmaq olar? Canlıların həyatında mühit amillərinin nə kimi rolu var?" sualları ətrafında aparılmalıdır.

Müzakirədən sonra C və D blokundakı mətn şagirdlər tərəfindən oxunmalı və yeri gəldikcə müzakirə aparılmalıdır. C blokundakı mətn fasiləli oxu üsulundan istifadə etməklə oxumaq olar. Şagirdlər müzakirələr zamanı öz müşahidələrini bölüşə bilərlər. Videoçarxdan da istifadə etmək məqsədəuyğundur.

B blokundakı tapşırıq kollektivdə icra oluna bilər. Şagirdlərin fikirlərini lövhədə qeyd etməniz məqsədəuyğundur. Bu barədə müxtəlif videoçarxlar nümayiş etdirməklə yönəldici suallardan da istifadə edə bilərsiniz. Bu tapşırığı şagirdlər cütlərdə yerinə yetirə bilərlər. Cütlərə rəngli stikerlər paylana bilər. Onlar bu stikerlərin üzərində fikirlərini qeyd edərək lövhədə asılmış flipçarta yapışdıra bilərlər.

Təbiətdə baş verən hadisələrə (eyni zamanda anomal hadisələrə) dair videoçarxın nümayişi daha vacibdir.  Çünki əyani öyrənmə tərzinə malik olan şagirdlər üçün bu vacibdir.

F blokunda verilmiş tapşırıqlardan yaradıcı **tətbiqetmə** mərhələsində və yaxud da ev tapşırığı kimi istifadə edə bilərsiniz. 4-cü tapşırıq evdə icra oluna bilər. Bu zaman şagirdlər şam ağacının işıqsevər bitki olduğundan aşağıdakı budaqlarının quruduğu qənaətinə gəlməlidirlər.

F blokundakı 1-ci tapşırığın cavabı I və III çıxışdır.

LAYİHƏ

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** təsnifetmə, əsaslandırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Canlıların həyatında mühitin rolunu əsaslandırmaqda çətinlik çəkir. | Canlıların həyatında mühitin rolunu müəllimin suallarına əsasən əsaslandırır. | Canlıların həyatında mühitin rolunu şəkillər əsasında əsaslandırır. | Canlıların həyatında mühitin rolunu sərbəst əsaslandırır. |
| Təbiət hadisələrini təsnif etməkdə çətinlik çəkir. | Təbiət hadisələrinin bir qismini təsnif edir. | Təbiət hadisələrini təsnif edərkən qeyri-dəqiqliyə yol verir. | Təbiət hadisələrini nümunələr göstərməklə sərbəst təsnif edir. |

LAYİHƏ

# Təbiəti gəzək və tanıyaq

## Təbiət qəzəblənib

**Alt standart:** 4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

**Məqsəd:** Fövqəladə hadisələri izah edir.
Fövqəladə hadisələr zamanı yaranan təhlükəni qiymətləndirir.

Mövzuya müxtəlif cür **motivasiya** yaratmaq mümkündür.

a) Şagirdlərə beyin həmləsi üsulundan istifadə etməklə "Təbiətdə hansı hadisələr baş verir? Bu hadisələri necə qruplaşdıra bilərik?" sualları verilə bilər. Şagirdlərin qeyd etdikləri fikirləri lövhədə yazmaq yaxşı olar. Şagirdlərin fikirlərini bu hadisələrin bir qisminin insan üçün təhlükəli olduğuna yönəltmək lazımdır.

b) Motivasiyanı müxtəlif şəkillərin nümayişi ilə də başlamaq olar.

**Tədqiqat** "Fövqəladə hadisələr zamanı hansı təhlükələr baş verə bilər?" sualları ətrafında aparmaq olar. Bütün dərsi bu sual ətrafında qurmaq lazımdır. Yəni dərsi yalnız fövqəladə hadisə harada baş verir, necə baş verir istiqamətində deyil, eyni zamanda "İnsan, təsərrüfat və digər canlılar üçün hansı təhlükələr də baş verə bilər?" sualları ətrafında aparmaq tələb olunur.

C blokundakı mətnin fasiləli oxu üsulu ilə müzakirəsi məqsədəuyğundur.

B blokundakı tapşırıq qruplarda aparıla bilər. Bu tapşırıq şagirdlərin şahidi olduqları və eşitdikləri bir hadisə ilə bağlıdır. Tələb verilmiş hadisənin müxtəlif baxış nöqteyi-nəzərdən təhlil olunmasıdır. Yəni şagirdlər bu hadisəni ekoloqlar (atmosfer, suyun ekosisteminə mənfi təsir), Dövlət neft sirkəti (işçi kollektivinin itirilməsi, maddi baxımdan neft-qaz itkisi) və cəmiyyət (əsas etibarilə insan təlefatı) nöqteyi-nəzərindən təhlil etməlidirlər.

Müzakirələr zamanı elektron təqdimatlara, videoçarxlara yer ayrılmalıdır.

F blokundakı tapşırıqlardan 5-ci evə verilə bilər. Bu zaman şagirdlər müxtəlif mənbələrdən istifadə etməklə araşdırma apara bilərlər. Unutmayın ki, bu mövzu məhz təbii fövqəladə hadisələrə həsr olunub.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilərlər.

LAYİHƏ

**Qiymətləndirmə meyarı:** izahetmə, qiymətləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Fövqəladə hadisələri izah etməkdə çətinlik çəkir. | Fövqəladə hadisələri müəllimin suallarına əsasən izah edir. | Fövqəladə hadisələri şəkillər əsasında izah edir. | Fövqəladə hadisələri sərbəst izah edir. |
| Fövqəladə hadisələr zamanı yaranan təhlükəni çətinliklə qiymətləndirir. | Fövqəladə hadisələr zamanı yaranan təhlükəni qiymətləndirərkən səhvlərə yol verir. | Fövqəladə hadisələr zamanı yaranan təhlükəni müəllimin köməyi ilə qiymətləndirir. | Fövqəladə hadisələr zamanı yaranan təhlükəni faktlar göstərməklə qiymətləndirir. |

LAYİHƏ

# Təbiəti gəzək və tanıyaq

## Günəş sistemində baş verən hadisələrin sirri

**Alt standart:** 1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.
**Məqsəd:** Günəş sistemində baş verən hadisələri təbiət hadisəsi kimi təsnif edir.

Dərsə beyin həmləsi üsulundan istifadə etməklə başlaya bilərsiniz. Bu məqsədlə şagirdlərə “Təbiət hadisələri hansılardır?” sualı ilə müraciət edə bilərsiniz. **Motivasiyanı** şaxələndirmə üsulundan istifadə etməklə də yarada bilərsiniz. Şagirdlər təbiət hadisələri içərisində əvvəlki dərslərdən öyrəndikləri Günəş və Ay tutulması, planetlərin paradı, Yerin öz oxu və Günəş ətrafında hərəkəti və s. qeyd edə bilərlər.

**Tədqiqat** “Günəs sistemində baş verən hadisələrin sirri nədir? Bu hadisələr necə baş verir?” sualları ətrafında aparılmalıdır.

C blokundakı mətnlə tanışlıq fasiləli oxu üsulu ilə aparıla bilər. Bu zaman müzakirələrdə müxtəlif şəkillərdən, elektron təqdimatdan, videoçarxdan istifadə etmək məqsədəuyğundur.

Tədqiqatın aparılması məqsədilə F blokundakı tapşırıqlardan yararlanmaq olar. Standartın tələbinə uyğun olaraq özünüz də müxtəlif tapşırıqlar hazırlaya bilərsiniz. Bu tapşırıqlar mətnin tamamlanması, səhvlər üzərində iş və s. ibarət ola bilər. Tapşırıqların işlənməsi üçün paylanma materiallarından istifadə məqsədəuyğundur. F blokundakı 3-cü tapşırıq yaradıcı tətbiqetmə mərhələsində kollektivlə birgə icra oluna bilər. 4-cü tapşırıq isə ev tapşırığı kimi nəzərdə tutulmuşdur.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** təsnifetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Günəş sistemində baş verən hadisələri təbiət hadisəsi kimi təsnif etməkdə çətinlik çəkir. | Günəş sistemində baş verən təbiət hadisələrini təsnif edərkən qeyri-dəqiqliyə yol verir. | Günəş sistemində baş verən hadisələri müəllimin köməyi ilə təbiət hadisəsi kimi təsnif edir. | Günəş sistemində baş verən hadisələri təbiət hadisəsi kimi sərbəst təsnif edir. |

LAYİHƏ

MÖVZU 5

# Təbiəti gəzək və tanıyaq

## Ekoloji mühitin canlılara təsiri

**Alt standart:** 1.2.1 Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.
**Məqsəd:** Ekoloji mühitin canlılara təsirini izah edir.
Təbiətdə baş verən hadisələrin canlıların həyatında rolunu əsaslandırır.

Şagirdlərdə A blokuna əsasən idraki fəallıq yarada bilərsiniz. Bu zaman şagirdlər müxtəlif cavablar səsləndirə bilərlər. Sualın cavabı səs-küydür.

**Motivasiyanı** muxtəlif şəkillərin vasitəsilə də yaratmaq mümkundur. Bu şəkillər elektron lövhədə də nümayiş etdirilə bilər. Məsələn, su hövzəsinin quruması, meşə yanğınları, havanın çirklənməsi və s.

**Tədqiqat** "Mühit canlılara necə təsir göstərir?" sualı ətrafında aparılmalıdır. B blokundakı tapşırıq qruplarda və yaxud kollektivdə müzakirə oluna bilər. Bu zaman yönəldici suallardan müxtəlif mühitlərdə yaşayan (səhralarda, tropik meşələrdə, suda, qütblərdə) canlıların şəkillərindən istifadə etmək məqsədəuyğundur. C blokundakı mətn fasiləli oxu, kiçik qruplarda müzakirə və İNSERT üsullarından istifadə etməklə mənimsənilə bilər. Bu zaman ozon qatının deşilməsi, günvurma və s. ilə bağlı videoçarx, eyni zamanda "Yaşıl paket" CD disk nümayiş etdirilə bilər. Müzakirələr zamanı diqqəti əsas etibarilə reallaşdırılacaq standarta və təlim məqsədinə yönəltmək lazımdır.

Tədqiqat zamanı F blokundakı tapşırıqlardan istifadə etmək olar. Bu məqsədlə 1-ci və 2-ci tapşırıqlar məqsədəmüvafiq hesab olunur. F blokundakı 3-cü tapşırıq yaradıcı tətbiqetmə mərhələsi üçün nəzərdə tutulmuşdur.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** izahetmə, fikrini əsaslandırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mühit dəyişkənliyinin canlılara təsirini çətinliklə izah edir. | Mühit dəyişkənliyinin canlılara təsirini çətinliklə izah edərkən qeyri-dəqiqliyə yol verir. | Mühit dəyişkənliyinin canlılara təsirini müəllimin köməyi ilə şərh edir. | Mühit dəyişkənliyinin canlılara təsirini nümunələrlə izah edir. |
| Təbiətdə baş verən hadisələrin canlıların həyatında rolunu əsaslandırmaqda çətinlik çəkir. | Təbiətdə baş verən hadisələrin canlıların həyatında rolunu əsaslandırarkən qeyri-dəqiqliyə yol verir. | Təbiətdə baş verən hadisələrin canlıların həyatında rolunu müəllimin köməyi ilə əsaslandırır. | Təbiətdə baş verən hadisələrin canlıların həyatında rolunu nümunələr göstərməklə fikrini tam əsaslandırır. |

LAYİHƏ

# Təbiəti gəzək və tanıyaq

## İnsan və təbiət

**Alt standart:** 1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.
**Məqsəd:** Mühit dəyişkənliyinin insan orqanizminə təsirini əsaslandırır.
Standartın tələbini nəzərə alaraq motivasiya müxtəlif cür yaradıla bilər.

a) Şagirdlərdə idraki fəallığı A blokuna əsasən yaratmaq mümkündür. Bu zaman şagirdlərin cavabı lövhədə qeyd oluna bilər.

b) Beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə müxtəlif şəkillərdən ibarət kollaj nümayiş etdirilə bilər. Mətndəki şəkillərə müvafiq görüntülər kollajda öz əksini tapmalıdır. Şəkildəki insanların geyimləri müqayisə olunaraq səbəbi müəyyənləşdirilir. Bu zaman şəkildəki insanların iqlim şəraitindən asılı olaraq bu cür geyindikləri fikrinə gəlinməlidir.

**Tədqiqat** mühit dəyişkənliyi insan orqanizminə necə təsir göstərir? sualı ətrafında aparılmalıdır.

C blokundakı mətn B blokuna qədər oxunmalı və müzakirə olunmalıdır. Bu mövzu həyatla tam əlaqəli olduğu üçün şagirdlərin öz müşahidələrini, eşitdiklərini, öyrəndiklərini bölüşmələrinə imkan yaradın. İzahata çox yer vermədən şagirdlərin özlərinin nəticəyə doğru istiqamətləndirməniz məqsədəuyğundur. Bu zaman yönəldici suallardan istifadə edin. B blokundakı tapşırıq 4 qrupda müzakirə oluna bilər.

Tədqiqatın aparılması zamanı F blokundakı tapşırıqlardan da istifadə etmək məqsədəuyğundur. Müzakirələr zamanı həkim məsləhətindən ibarət videoçarxın nümayişi də məqsədəuyğun hesab olunur.

**Qiymətləndirməni** dərsin istənilən mərhələsində apara bilərsiniz. Həm qruplarda, həm də kollektiv müzakirələrdə fəal iştirak edən şagirdlər aşağıdakı meyar əsasında qiymətləndirilə bilər.

**Qiymətləndirmə meyarı:** fikrini əsaslandırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mühit dəyişkənliyinin insan orqanizminə təsiri ilə bağlı fikrini əsaslandırmaqda çətinlik çəkir. | Mühit dəyişkənliyinin insan orqanizminə təsiri ilə bağlı fikrini əsaslandırarkən səhvlərə yol verir. | Mühit dəyişkənliyinin insan orqanizminə təsiri ilə bağlı fikrini qismən əsaslandırır. | Mühit dəyişkənliyinin insan orqanizminə təsiri ilə bağlı fikrini nümunələrlə əsaslandırır. |

LAYİHƏ

MÖVZU 7

# Təbiəti gəzək və tanıyaq

## Təbiətin harayı

**Alt standart:** 1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.
**Məqsəd:** Ətraf mühitin canlılara təsirini faktlarla əsaslandırır.

Dərsə A blokunda verilmiş **motivasiya** ilə başlaya bilərsiniz. Verilmiş suala əsasən şagirdlərin cavablarının lövhədə və yaxud flipçartda qeyd olunması məqsədəuyğundur. C blokundakı mətnin öyrənilməsindən sonra şagirdlərin motivasiya mərhələsində irəli sürdükləri fikirlərin nə dərəcədə doğru olmasını müəyyənləşdirmək olar.

Motivasiyanı BİBÖ üsulundan istifadə etməklə də yarada bilərsiniz. Bu zaman şagirdlərin ətraf mühiti çirkləndirən amilləri cədvəlin I, öyrənmək istədikləri məsələləri (Ətraf mühitin çirklənməsinin canlılara təsirini) II sütunda, öyrəndiklərini isə aparılacaq tədqiqat işinin nəticələrinin müzakirəsindən sonra ümumiləşdirmə və nəticə mərhələsində III sütunda yazmaq lazımdır. II sütunun doldurulması üçün şagirdlərin fikirlərini ətraf mühitin çirklənməsinin canlılara təsiri məsələlərinə yönəltmək vacibdir.

**Tədqiqat** "Ətraf mühitin çirklənməsi canlılara necə təsir göstərir?" sualı ətrafında aparılmalıdır.

C blokunda verilmiş mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Müzakirələr zamanı videoçarxın nümayişinə, CD diskə, şəkillərə istinad etmək məqsədəuyğundur.

B blokundakı tapşırıq qrupda icra oluna bilər. Bu zaman təlim nəticəsini nəzərə almaq mütləqdir. Tapşırıqların icra olunması üçün şagirdlərə müxtəlif şəkillər təqdim olunmalıdır.

Tədqiqatın aparılması zamanı F blokundakı tapşırıqlardan da istifadə oluna bilər. F blokundakı 1-ci tapşırıq yaradıcı tətbiqetmə mərhələsində istifadə üçün yararlıdır.

**Ev tapşırığı** olaraq şagirdlərə çirklənmiş ərazilərin fotoalbomun hazırlanmasını və bu çirklənmənin canlılara təsirini araşdırmağı tapşırmaq olar.

**Qiymətləndirmə meyarı:** fikrini əsaslandırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ətraf mühitin canlılara təsiri ilə bağlı fikrini faktlarla əsaslandırmaqda çətinlik çəkir. | Ətraf mühitin canlılara təsiri ilə bağlı fikrini faktlarla əsaslandırarkən qeyri-dəqiqliyə yol verir. | Ətraf mühitin canlılara təsiri ilə bağlı fikrini müəllimin suallarına əsasən əsaslandırır. | Ətraf mühitin canlılara təsiri ilə bağlı fikrini sərbəst olaraq əsaslandırır. |

LAYİHƏ

MÖVZU 8

# Təbiəti gəzək və tanıyaq

## Təbiətə borcumuz

**Alt standart:** 3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir.
**Məqsəd:** İnsanın təbiət qarşısındakı mənəvi borcunu izah edir.

Mövzunun tədrisinə A blokunda verilmiş **motivasiya** ilə başlaya bilərsiniz. Bunun üçün bu blokda verilmiş mətni oxuya bilərsiniz. Şagirdləri mətnin sonunda verilmiş sual ətrafında müzakirəyə cəlb olunmalı və onların fikirləri dinlənilməlidir. Bu zaman şagirdlər müxtəlif fikirlər səsləndirə bilərlər. İmkan yaradılmalıdır ki, şagirdlər öz fikirlərini əsaslandırsınlar. Siz şagirdlərin fikrini "insanın təbiət qarşısındakı borcu" üzərində cəmləməyə çalışın.

Şagirdlərdə idraki fəallığı başqa cür də yarada bilərsiniz. Onlara müxtəlif şəkillər (budağı sınmış ağacı bağlayan uşaq, ağacı sındıran uşaq, quş yuvasını dağıdan və quş yuvasını quran uşaq və s.) təqdim etməklə bu şəkilləri qruplaşdırmaq tapşırıla bilər. Şagirdlər "Nə üçün bu cür qruplaşma apardınız?" sualına cavab verərək fikirlərini əsaslandırmalıdırlar.

**Tədqiqat** "İnsanın təbiət qarşısında borcu nədən ibarətdir?" sualı ətrafında aparılmalıdır.

C blokunda verilmiş mətni şagirdlər fasiləli oxu üsulundan istifadə etməklə mənimsəyə bilərlər. Müzakirələr zamanı videoçarxın nümayişinə, CD diskə, şəkillərə istinad etmək məqsədəuyğundur.

B blokundakı tapşırıq kollektivlə müzakirə oluna bilər. Müzakirə üçün başqa şəkillərdən, eyni zamanda şagirdlərdə etdiyiniz müşahidələrdən yararlana bilərsiniz.

F blokundakı tapşırıqlar qrupda işləmək üçün yararlıdır. Bunlardan birini evə tapşıra da bilərsiniz.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsanın təbiət qarşısındakı mənəvi borcunu izah etməkdə çətinlik çəkir. | İnsanın təbiət qarşısındakı mənəvi borcunu izah edərkən qeyri-dəqiqliyə yol verir. | İnsanın təbiət qarşısındakı mənəvi borcunu müəllimin suallarına əsasən izah edir. | İnsanın təbiət qarşısındakı mənəvi borcunu nümunələrlə sərbəst izah edir. |

LAYİHƏ

MÖVZU 1

# Dinimiz və mənəviyyatımız

## İnsanın gözəlliyi onun əxlaq və davranışındadır

**Alt standart:** 3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.
**Məqsəd:** İnsanların əxlaq və davranışlarının formalaşmasına təsir edən amilləri fərqləndirir.

Mövzu ilə bağlı motivasiyanı müxtəlif üsullarla yaratmaq olar:

a) A blokundakı şəkillərə əsasən **motivasiya** yaradıla bilər. Motivasiyada siz şagirdlərin hər birinin şəkillər haqqında fikirlərini dinləyin. Bu zaman yönəldici suallardan da istifadə oluna bilər.

b) Motivasiya yaratmaq üçün videoçarx da nümayiş etdirilə bilər. Videoçarx müxtəlif əxlaqi keyfiyyətlər əks etdirilməlidir.

**Tədqiqat** "İnsanların əxlaq və davranışlarının formalaşmasına təsir göstərən amillər hansılardır?" sualı ətrafında aparılmalıdır.

C blokundakı mətn fasiləli oxu, İNSERT üsulu ilə araşdırıla bilər. Mətnlə işə mütləq yer ayrılmalıdır. Tədqiqatın aparılması məqsədilə B blokundakı tapşırıqla yanaşı, F blokundakı tapşırıqlardan da istifadə edə bilərsiniz.

Tədqiqat qruplarla aparıla bilər.

Müzakirələr zamanı insanların müsbət əxlaqi keyfiyyətlərini fərqləndirməyə çalışın. Onları mənfi xüsusiyyətlərdən insanların, adətən, zərər çəkdiyi fikrinə gəlməyə yönəldin.

Bu məqsədlə bədii kitablarda, filmlərdən, həyati faktlardan misallar gətirə bilərsiniz.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsanların əxlaq və davranışlarına təsir göstərən amilləri fərqləndirməkdə çətinlik çəkir. | İnsanların əxlaq və davranışlarına təsir göstərən amilləri fərqləndirərkən müəllimin verdiyi suallara əsaslanır. | İnsanların əxlaq və davranışlarına təsir göstərən amilləri fərqləndirərkən kiçik səhvlərə yol verir. | İnsanların əxlaq və davranışlarına təsir göstərən amilləri sərbərst fərqləndirir. |

LAYİHƏ

# Dini dözümlülük

**Alt standart:** 3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.
**Məqsəd:** Dini dözümlülüyü və onun insanlar üçün əhəmiyyətini izah edir.

**Motivasiyanı** müxtəlif cür yaratmaq olar:

a) Dərsə A blokundakı motivasiya ilə başlaya biləriniz.

b) Dərsə başlamaq üçün müxtəlif xalqların nümayəndələrini əks etdirən şəkillərdən istifadə etmək olar. Şəkillər milli geyimlərlə bağlı olmalıdır. Bu məqsədlə elə xalqların nümayəndələri seçilməlidir ki, onlar zahiri görünüşlərinə görə də fərqlənsinlər. Şagirdlərə belə bir sualla müraciət etmək olar: bu insanlar bir-birindən nə ilə fərqlənirlər? Şagirdlərin cavabları müxtəlif ola bilər. Onların fikirlərini eyni zamanda da dini fərqlərə yönləndirmək lazımdır. Şagirdlər bu qənaətə gəlirlər ki, insanlar bir-birindən zahiri görünüşünə, dilinə, geyiminə, adət-ənənəsinə görə fərqlənirlər. Onları fərqləndirən cəhətlərdən biri də müxtəlif dinlərə mənsub olmalarıdır.

c) Şagirdlərdə idraki fəallıq yaratmaq üçün Azərbaycanda olan müxtəlif dinlərə məxsus ibadətgahların şəkillərini və ya videoçarx nümayiş etdirə bilərsiniz. Bundan sonra onlara belə bir sualla müraciət oluna bilər: Bu şəkillər nəyi ifadə edir?

Cavablar alındıqdan sonra şagirdləri tədqiqata cəlb etmək lazımdır. **Tədqiqat** "Dini dözümlülüyün əhəmiyyəti nədən ibarətdir?" sualı ətrafında aparılmalıdır.

Tədqiqata nəzəri materialın fasiləli oxu və İNSERT üsulu ilə oxunması yolu ilə başlamaq olar. Müzakirələr zamanı o qənaətə gəlinməlidir ki, Azərbaycan tolerant bir dövlətdir. Burada bütün dinlərə eyni cür hörmət edilir.

B blokundakı tapşırıq qrupla və yaxud kollektivdə icra oluna bilər. İmkan yaradın ki, onlar öz fikirlərini əsaslandırsınlar.

F blokundakı tapşırıqlardan 1 və 3-cü tapşırıq sinifdə, 2-ci tapşırıq evdə icra oluna bilər.

**Qiymətləndirmə meyarı:** izahetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dini dözümlülüyü izah etməkdə çətinlik çəkir. | Dini dözümlülüyü müəllimin köməyi ilə izah edir. | Dini dözümlülüyü izah edərkən kiçik qüsurlara yol verir. | Dini dözümlülüyü sərbəst və faktlarla izah edir. |

LAYİHƏ

MÖVZU 3

# Dinimiz və mənəviyyatımız

## Səmavi və qeyri-səmavi dinlər

**Alt standart:** 3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.
**Məqsəd:** Səmavi və qeyri-səmavi dinləri fərqləndirir.

Şagirdlərdə idraki fəallığı A blokuna əsasən yarada bilərsiniz. Bu zaman səslənən fikirlərin lövhədə yazılması məqsədəuyğundur. **Motivasiya** yaratmaq üçün şagirdlərin ibtidai siniflərdə Həyat bilgisi fənnindən dinlər haqqında aldığı biliklərə də istinad etmək olar. Bu məqsədlə lövhəyə müxtəlif dinlərin adını yazmaq olar. Şagirdlərə burada yazılan dinlər haqqında bildiklərini qeyd etmələrini tapşıra bilərsiniz.

C blokundakı mətnin oxunulması İNSERT üsulu ilə aparıla bilər. Bu zaman lövhədə cədvəl qurub dinləri bu cədvəldə yerləşdirmək olar.

| Qeyri-səmavi dinlər | Səmavi dinlər |
|---|---|
| buddizm, zərdüştlük, şamanizm | xristianlıq, yəhudilik, islam |

**Tədqiqat** "Dinləri necə qruplaşdırmaq olar?" Dinlər bir-birindən necə fərqlənir? sualı ətrafında aparılmalıdır.

Qruplarla tədqiqat aparılarsa, hər qrupa müxtəlif dinlər haqqında tapşırıqlar da verilə bilər. F blokundakı tapşırıqlardan da tədqiqat məqsədilə istifadə edə bilərsiniz. Tapşırığın icrası üçün paylama materialları hazırlanmalıdır. F blokundakı birinci tapşırıqdan yaradıcı tətbiqetmə mərhələsində istifadə etmək mümükündür.

Müzakirələr zamanı müxtəlif dinlərin xüsusiyyətlərini, müsbət cəhətlərini, insanları düzgünlüyə, yaxşı əməllərə çağırmasını xüsusi vurğulayın.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qeyri-səmavi və səmavi dinləri fərqləndirərkən qeyri-dəqiqliyə yol verir. | Qeyri-səmavi və səmavi dinləri müəllimin köməkliyi ilə fərqləndirir. | Qeyri-səmavi və səmavi dinləri fərqləndirərkən cüzi səhvlərə yol verir. | Qeyri-səmavi və səmavi dinləri sərbəst fərqləndirir. |

LAYİHƏ

## İnanc sistemində oxşarlıq və fərqlər

**Alt standart:** 3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.
**Məqsəd:** İnanc sistemlərindəki oxşarlıq və fərqləri izah edir.

**Motivasiyanı** A blokundakı şəkillərə əsasən yarada bilərsiniz. Şagirdlərin fikirləri qeyd oluna bilər. Motivasiya yaratmaq üçün BİBÖ üsulundan istifadə etmək də olar. Bu zaman cədvəl belə qurula bilər:

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| Səmavi və qeyri-səmavi dinləri | Dinlərin oxşar və fərqli xüsusiyyətlərini | |
| | | |
| | | |

Cədvəlin I və II hissəsi dərs başlayanda doldurulur. Sonra III hissə müzakirə olunan sualların və ya qrup tapşırıqlarının cavabları ilə doldurula bilər.

**Tədqiqat** "İnanc sistemində oxşarlıq və fərqlər nədən ibarətdir?" sualı ətrafında aparılmalıdır.

C blokundakı mətnin oxunmasına başlamazdan öncə B blokundakı tapşırıq qruplarda icra oluna bilər. Tədqiqat zamanı F blokuna da istinad edə bilərsiniz.

B blokundakı tapşırıq qruplarda icra oluna bilər. Bu zaman onlar öz bildikləri və müşahidə etdiklərini müzakirə etməlidirlər.

Tapşırıq başqa cür də qoyula bilər. Məsələn: yəhudiliklə xristianlıqda tutulan orucun fərqi nədir?

Bu tapşırığın icrası üçün şagirdlərə paylama materiallarının təqdim olunması məqsədəuyğundur.

Tapşırıqların icrası zamanı sinifdəki şagirdlərin maraqları və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnanc sistemindəki oxşarlığı və fərqli xüsusiyyətləri fərqləndirərkən qeyri-dəqiqliyə yol verir. | İnanc sistemindəki oxşarlığı və fərqli xüsusiyyətləri fərqləndirərkən cüzi səhvlərə yol verir. | İnanc sistemindəki oxşarlığı və fərqli xüsusiyyətləri suallara əsasən fərqləndirir. | İnanc sistemindəki oxşarlığı və fərqli xüsusiyyətləri sərbəst fərqləndirir. |

LAYİHƏ

# Summativ qiymətləndirmə vasitələri

LAYİHƏ

**1. Hansı sırada yalnız iqtisadi vasitələr sadalanıb?**

a) binalar, zavodlar, alətlər
b) yol, üzüm, pendir
c) rabitə, şüşə, top
d) üzüm, soyuducu, bina
e) dəzgah, çay bitkisi, insan əməyi

**2. Dövlətin vəzifələri hansılardır?**

1) Dövlətin öz ərazisi vardır.
2) Dövlət pul buraxa bilir.
3) İnsanların hüquq və azadlıqlarını müdafiə edir.
4) Dövlətin qanunları var.
5) Uşaqlara pulsuz təhsil almaq imkanı yaradır.

a) 1, 3 b) 3, 5 c) 1, 5 d) 4, 5 e) 2, 4 f) 2, 3

**3. İnsanı heyvandan fərqləndirən əsas ünsiyyət vasitəsi nə üçün nitqdir?**

______________________________________________

______________________________________________

**4. Qeyri-hökumət təşkilatlarını dövlət qurumlarından və beynəlxalq qurumlardan fərqləndirən nədir?**

______________________________________________

______________________________________________

**5. Dövlətin alamətləri hansılardır?**

- Uşaqlara pulsuz təhsil almaq imkanı yaradır.
- Dövlətin öz ərazisi var.
- Dövlət insanların hüquq və azadlıqlarını müdafiə edir.
- Dövlət sərhədlərinin qorunması qayğısına qalır.
- Dövlət pul buraxa bilir.
- Dövlətin xüsusi qanunları var.

LAYİHƏ

**6. İnsan hüquqlarını qoruyan beynəlxalq qurumlar hansı sırada düzgün göstərilmişdir?**

a) BMT, ATƏT, məhkəmə
b) Milli Məclis, İSESKO, ATƏT
c) İcra hakimiyyətləri, məhkəmə, BMT
d) Milli Məclis, BMT
e) Məhkəmə, İSESKO
f) UNISEF, UNESKO, BMT

**7. Ölkəmizin əsas qanunu necə adlanır?**

**8. Düzgün olmayan ifadəni seçin.**

a) Milli Məclisdə qanunlar səsvermə yolu ilə qəbul olunur.
b) Milli Məclisin verdiyi qanunları icra hakimiyyətləri yerinə yetirir.
c) Məhkəmələr qanun keşiyində durur.
d) Hüquqi dövlət şəxsiyyətə, şəxsiyyət dövlətə xidmət edir.

**9. Ən böyük sosial qrupları göstərin:**

a) ailə, millət, nəsil
b) ailə, nəsil
c) millət, sinif
d) ailə, sinif, nəsil

**10. Respublikamızda dövlət qanunlarını qəbul edən qanunverici orqan hansıdır?**

a) məhkəmə
b) icra hakimiyyəti
c) Milli Məclis
d) BMT

LAYİHƏ


80

## II bölmə Summativ qiymətləndirmə vasitələri

**1. Aşağıdakılardan hansı sağlamlığa mənfi təsir göstərir?**

a) idman
b) siqaret çəkməmək
c) yuxu rejiminə əməl etməmək
d) əlləri tez-tez yumaq
e) saçları daramaq

**2. Elektrik nə zaman təhlükəli ola bilər?**

1. Naqilin üstü açıq olarsa
2. Tozsoran, çaynik və soyuducu eyni vaxtda cərəyana qoşularsa
3. Naqilin üstü bağlı olarsa
4. Sulu əllərlə rozetkaya toxunularsa
5. Ştepselden deyil, naqildən tutub dartılarsa.

a) 1, 4, 3, 2   b) 1, 2, 3, 5   c) 1, 3, 4, 5   d) 1, 2, 4, 5

**3. Sağlamlığın şərti hansı bənddə düzgün göstərilmişdir?**

a) çox yemək
b) qəmgin olmaq
c) spirtli içki qəbul etmək
d) idman etmək
e) yalan danışmaq

**4. Aşağıda verilənlərdən hansılar sağlamlığımızı təhlükə qarşısında qoyur?**

1. Elektrik qəzaları
2. Evlərdə yangın
3. Üzgüçülük
4. Nəqliyyat qəzaları
5. Yoluxucu xəstəliklərdən qorunmaq

a) 1, 5, 3   b) 1, 5, 2   c) 1, 2, 4   d) 3, 4, 5

**5. Nişanlardan hansı sürüşkən yola yaxınlaşmağı xəbər verir?**




LAYİHƏ

**6. Yol nişanlarını adlandır və əhəmiyyətini yaz.**







**7. Aşağıdakılardan hansı doğrudur?**

a) Sürücülərlə piyadalar eyni qaydalara əməl etməlidirlər.
b) Piyadalar küçəni keçmək üçün yalnız bu məqsədlə ayrılmış körpülərdən, piyada keçidlərindən istifadə etməlidirlər.
c) Yol hərəkəti qaydalarını bilmək o qədər də vacib deyil.
d) Yol hərəkəti qaydalarına yalnız piyadalar əməl etməlidir.
e) Yol qəzaları yalnız sürücülərin ehtiyatsızlığı üzündən baş verir.

**8. Küçədə hansı xoşagəlməz hallarla qarşılaşırıq?**

1) terror
2) zəhərlənmə
3) silahlı toqquşma
4) it dişləməsi
5) nəqliyyat qəzaları
6) sulu əllərlə rozetkaya toxunmaq

a) 1, 2, 3  b) 1, 2, 4, 6  c) 1, 5, 2, 6  d) 2, 4, 5, 6  e) 1, 3, 4, 5

**9. Hansı sətirdə yalnız fiziki sağlamlığa aid nümunələr qeyd olunub?**

a) saçları təmiz saxlamaq, nikbin olmaq
b) düzgün qidalanmaq, qəmgin olmaq
c) idmanla məşğul olmaq, saçları təmiz saxlamaq
d) vəziyyəti düzgün qiymətləndirmək, musiqi dinləmək

**10. İnsan hansı yollarla emosional sağlam ola bilər?**

a) hər gün səhər idman etmək, qəşəng və səliqəli geyinməklə
b) xeyirxahlıq, böyüklərə hörmət etmək
c) klassik musiqini dinləmək, yaradıcılıqla məşğul olmaqla
d) yoluxucu xəstəliklərdən qorunmaq, idmanla məşğul olmaqla
e) siqaret çəkməmək, düzgün qidalanmaqla

LAYİHƏ

# Summativ qiymətləndirmə vasitələri

**1. Hansı sırada fövqəladə hadisələr sadalanıb?**

1. Zəlzələ, sunami
2. Heyvanların çoxalması, bitkilərin böyüməsi
3. Tufan, vulkan püskürməsi
4. Sel, torpaq sürüşməsi

a) 1, 2, 4 b) 1, 3, 4 c) 1, 2, 3 d) 2, 3, 4

**2. Qeyri-adı hadisələr canlı təbiətə necə təsir göstərir? (Nümunələr yaz).**

______________________________

______________________________

**3. Günəş sistemində hansı hadisələr baş verir?**

______________________________

______________________________

**4. Plazma halında olan maddəni göstərin.**

a) daş b) benzin c) təbii qaz d) alov qığılcımı

**5. Eyni həcmli müxtəlif formalı və müxtəlif həcmli eyni formalı cisimlərə misal göstərin.**

______________________________

______________________________

**6. Xəzər dənizini çirkləndirən amilləri seçin.**

1. Suyun səviyyəsinin qalxması
2. Xəzərə çaylar vasitəsilə gələn çirkləndiricilər
3. Su nəqliyyatı
4. Neftlə çirklənmə

a) 1, 3, 4 b) 1, 2, 3 c) 1, 2, 4 d) 2, 3, 4

LAYİHƏ

**7. Günəşin ultrabənövşəyi şüalarının az miqdarı nə üçün faydalıdır?**

a) İnsanın boyunu artırır.
b) Sümükləri sərtləşdirir.
c) İrsi xəstəliklər azaldır.
d) D vitamini əmələ gətirir.

**8. Aşağıdakılardan düzgün olanları seçin.**

1. Ozon qatı dağılsa, həyat davam edər.
2. Günəş şüaları altında çox qalanda istivurma baş verər.
3. İnsan ultrabənövşəyi şüaları görür.
4. Maşınların tüstüsü təbiəti korlayır.

a) 2, 4 b) 1, 3 c) 1, 4 d) 3, 4

**9. Günəş şüaları altında çox qaldıqda nə baş verir?**

1. Canlılar məhv olur.
2. Yoluxucu xəstəliklər əmələ gəlir.
3. Günvurma olur.
4. Dəridə yanıqlar əmələ gəlir.

a) 2, 3 b) 1, 4 c) 1, 3 d) 3, 4

**10. Cisimlərin altından xətt çəkin:**

Yağ, rezin, dəftər, su, top, televizor

LAYİHƏ

**1. Aşağıdakılardan hansı qeyri-səmavi dinlərdir?**

a) İslam, xristianlıq, yəhudilik
b) şamanlıq, yəhudilik, İslam
c) buddizm, xristianlıq, zərdüştlük
d) buddizm, şamanlıq, zərdüştlük

**2. Aşağıdakılardan hansı İslam dininə aiddir?**

1. Gündə 5 dəfə namaz qılmaq
2. Kilsədə ibadət etmək
3. Həcc ziyarətinə getmək
4. Ramazan ayında oruc tutmaq
5. Günahlardan təmizlənmək üçün keşişə müraciət etmək

a) 1, 3, 4 b) 2, 3, 5 c) 3, 4, 5 d) 1, 2, 3

**3. Aşağıdakılardan hansı müsbət əxlaqi keyfiyyətdir?**

a) yalançılıq
b) dürüstlük
c) qeybətcilik
d) oğurluq

**4. Aşağıdakılardan düzgün olanları seçin?**

1) Dinlər yalnız bir ölkədə yayılmışdır.
2) Azərbaycan əhalisinin 95%-i müsəlmandır.
3) Azərbaycanda yalnız müsəlmanlar yaşayır.
4) Azərbaycanda tarixən şamanlıq və zərdüştlük kimi çoxallahlı dinlər yayılmışdır.
5) Azərbaycan dinlərin qovuşduğu məkan adlanır.

a) 1, 2, 4 b) 2, 3, 4 c) 2, 4, 5 d) 3, 4, 5

**5. Səmavi din hansıdır?**

a) buddizm b) zərdüştlük
c) şamanlıq d) İslam

LAYİHƏ

**6. Mənfi əxlaqi keyfiyyətləri seçin:**

1. yalançılıq
2. qeybətcilik
3. saxtakarlıq
4. dürüstlük
5. oğurluq
6. səmimilik
7. mehribanlıq
8. paxıllıq

**7. İnsanların əxlaq və davranışlarının formalaşmasına təsir göstərən amilləri yazın.**

**8. Aşağıdakı cədvəli tamamlayın.**

| Din | Peyğəmbəri | Müqəddəs kitabı | İbadət yeri |
|---|---|---|---|
| İslam | | | |
| Xristianlıq | | | |
| Yəhudilik | | | |

**9. Səmavi dinlərin oxşar cəhəti hansıdır?**

a) Müqəddəs günlərinin bazar günü olması
b) Təkallahlılıq
c) Dini kitablarının eyni olması
d) Dini bayramlarının eyni olması
e) Peyğəmbərlərinin eyni olması

**10. Cümlələri tamamlayın.**

1. Müsəlmanlar üçün müqəddəs gün
2. Xristianlar üçün müqəddəs gün
3. Yəhudilər üçün müqəddəs gün

LAYİHƏ

# İSTİFADƏ EDİLMİŞ VƏ MÜƏLLİMİN İSTİFADƏ EDƏ BİLƏCƏYİ MƏNBƏLƏR

## Azərbaycan dilində


1. Ayna Uşaq Ensiklopediyası, 2002
2. Azərbaycan Respublikasının Konstitusiyası
3. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə, Bakı, 2004
4. Ekoloji siyasət. Bakı, 2008
5. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001
6. Qurani-Kərim (Tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev), 2011
7. Maqsud Qasımov. "Sağlam həyat tərzi uğrunda". Bakı, 2005
8. N.Əkbərov. "Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları". "Bərəkət" nəşriyyatı, 2010
9. N.Əkbərov. "Məktəbdə əxlaq və davranış qaydaları". "Bərəkət" nəşriyyatı, 2010
10. "Özünə və başqalarına kömək etməyi bacar" (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi), Bakı, 2004
11. Ramil Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002
12. Rəfiqə Əliyeva, Qara Mustafayev, Sevinc Hacıyeva. "Ümumi ekologiya". Bakı, 2004
13. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. "Tibbi biliklərin əsas ları". Bakı, 2004
14. S.Tağıyeva və b. "Həyati bacarıqlara əsaslanan təhsil". Müəllimlər üçün tədris vəsaiti. (V– IX siniflər). Bakı, 2006
15. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacı yeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. "Həyati bacarıqlara əsaslanan təhsil", Çaşıoğlu, 2007
16. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009


## Türk dilində


17. Delius, Harald. "Etik, Günümüz Felsefe Disiplinleri", D.Özlem, İstanbul


LAYİHƏ

### Rus dilində

18. Коробкин В.И., Передельский Л.В. «Экология». – Ростов н/Д: Феникс 2000
19. Новиков Ю.В. «Природа и человек». – М.: Просвещение, 1991
20. Щепанская Т.Б. «Культура дороги в русской мифоритуальной традиции XIX–XX вв.». М.: Индрик, 2003

### İnternet resursları

21. http://www.clb.az/files/mv/Menevi_irs.pdf
22. http://multiculturalism.preslib.az/az_a3.html
23. http://www.ebooks.az/view/rOeXAGZE.pdf
24. http://www.refugees-idps-committee.gov.az/az/pages/17.html
25. http://www.refugees-idps-committee.gov.az/az/news/606.html
26. http://miqrasiya.nakhchivan.az/en/images/stories/konvensiyalar/7.pdf
27. http://azhumanrights.az/fondumuz/
28. http://scfwca.gov.az/
29. http://www.fhn.gov.az/?aze/menu/20
30. http://www.fhn.gov.az/index.php?aze/pages/150
31. http://www.dyp.gov.az/?/az/content/188/
32. http://www.fhn.gov.az/?aze/menu/26/348


LAYİHƏ